5 oktyabr 2022 №73 (1946)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident və birinci xanım Ağdam rayonuna səfər ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam rayonuna səfər ediblər.



Dövlətimizin başçısı əvvəlcə yeni çəkilən Bərdə-Ağdam avtomobil yolunda aparılan işlərlə tanış olub. Məlumat verilib ki, uzunluğu 44,5 kilometr olan yolda ümumi iş həcminin 75 faizi icra olunub.

Sonra Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin təməlqoyma mərasimi keçirilib. Qeyd olunub ki, mərkəzin konsepsiyası "Reflect Architechts" şirkəti tərəfindən hazırlanıb. Potensial böyümə hədəfi 30 hektar olan ərazinin 7 hektarında yerləşən mərkəzin tərkibində 120 baş at üçün xüsusi dizayn edilmiş tövlələr, nəsilartırma laboratoriyaları, digər obyektlər yaradılacaq. Mərkəzdə mehmanxana, muzey, kafe, restoran və tribunalar nəzərdə tutulub, peşəkar və həvəskar çaparlar üçün xüsusi məşq zonaları, qaçış zolaqları və çövkən yarışları üçün meydança layihələndirilib.

Prezident və birinci xanım Ağdam rayonunun Xıdırlı və Kəngərli kəndlərinin təməlqoyma mərasimlərində də iştirak ediblər.

Bildirilib ki, Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 1500 ailənin məskunlaşması, birinci mərhələdə 719 fərdi evin tikintisi planlaşdırılır. Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində isə 639 ailənin məskunlaşması, birinci mərhələdə 290 fərdi evin inşa edilməsi nəzərdə tutulur. Hər iki kənddə tikinti işləri 2024-cü ildə tamamlanmalıdır.

Dövlət başçısı və birinci xanım daha sonra Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin, "City Hotel Agdam" mehmanxanasının təməlqoyma mərasimlərində iştirak edib, Pənahəli xanın sarayı və İmarət kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını ediblər. Həmçinin Ağdam şəhərində inşa olunacaq 470 mənzildən ibarət yaşayış məhəlləsinin, şəhərin dəmiryolu və avtovağzal kompleksinin, rayonun Sarıcalı kəndinin təməlqoyma mərasimləri də keçirilib.

Prezidentin Ağdam rayonuna səfəri barədə daha ətraflı qəzetin növbəti sayında.

## Kitabla görüş yeri yenə Bakıdır...

### Müəllif, naşir və oxucuları bir araya gətirən VIII Bakı Beynəlxalq Kitab Sərgisi

Respublikamızda kitab sənətinin, nəşriyyat-poliqrafiya sənayesinin inkişafı və son illər bu sahədə görülən işlərin, reallaşan ardıcıl layihələrin nəticəsidir ki, bu gün kitabla bağlı hər hansı tədbir artıq ictimai maraq kəsb edən hadisələr sırasındadır. Ölkəmizdə nəşriyyat işinin səviyyəsi də ildən-ilə yaxşılaşmaqdadır. Bu sahədə ənənə halını alan Bakı Beynəlxalq Kitab Sərgisi xüsusi rol oynayır.

İlk dəfə 2009-cu ildə keçirilən sərgi müəllif, naşir və oxucuları bir araya gətirərək ötən müddətdə əhatə dairəsini və iştirakçı coğrafiyasını genişləndirib. 2021-ci ilədək iki ildən bir təşkil olunan beynəlxalq sərginin ötən ildən etibarən format və dövriliyi daha da təkmilləşib. Artıq hər il keçirilən Bakı Beynəlxalq Kitab Sərgisinin məkanı da geniş, miqyas və hədəflərinə uyğundur...

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 5-9 oktyabr tarixində VIII Bakı Beynəlxalq Kitab Sərgisi ("Baku International Book Fair – 2022") keçiriləcək. Bakı Ekspo Mərkəzində reallaşacaq sərgi "Şuşa İli"nə həsr olunub. Xatırladaq ki, ötən sərgi Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmişdi.



Bəs builki beynəlxalq kitab bayramı daha nələrlə əlamətdar olacaq?

Oktyabrın 4-də keçirilən mətbuat konfransında bu barədə ətraflı məlumat verildi.

Mətbuat konfransını açan Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli qeyd etdi ki, builki sərginin öncəkilərdən bir fərqi onun miqyasının daha geniş olmasıdır: "8-ci sərgi "Şuşa İli"nə həsr olunub. Ona görə də çap məhsullarının əksəriyyəti mədəniyyət paytaxtımızın simvolları ilə bəzədilib. "Caspian Event Organisers" şirkətinin təşkilati dəstəyi ilə keçiriləcək sərgidə 10-dan çox ölkə (Türkiyə, Rusiya, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və s.), 100-dən artıq yerli və xarici nəşriyyatın iştirakı gözlənilir.

***davamı səh. 2-də***

## "Silahın mistik gözəlliyi" sərgisinin kataloqu təqdim edildi

Milli Azərbaycan Tarixi Muzeyində bu ilin iyun ayından nümayiş olunan "Silahın mistik gözəlliyi (XVI-XIX əsrlər Azərbaycan silahı)" sərgisinin kataloqu çapdan çıxıb. Oktyabrın 3-də muzeydə kataloqun təqdimatı keçirildi.

Milli Azərbaycan Tarixi Muzeyinin baş direktoru, akademik Nailə Vəlixanlı tədbiri açaraq bildirdi ki, mütəmadi olaraq müəssisədə Azərbaycanın hərb tarixinə həsr olunmuş tədbirlər keçirilir. Həmin tədbirlərdən biri də hazırda muzeydə nümayiş olunan silah sərgisidir. Azərbaycanda silah istehsalının ölkənin hərb tarixinin mühüm səhifələrindən, eyni zamanda sənətkarlığın vacib sahələrindən birini təşkil etdiyini deyən akademik diqqətə çatdırdı ki, yüksək peşəkarlığı ilə seçilən usta-sənətkar kadrlara malik olan Azərbaycanda hələ qədim dövrlərdən silah istehsalı hərtərəfli inkişaf edib.




Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirdi ki, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı parlaq Qələbə nəticəsində ölkəmizin hərb tarixinə də ictimai maraq artıb. Dövlət başçısının tapşırığına uyğun olaraq, ölkəmizdə gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi diqqət mərkəzində saxlanılır. Bu baxımdan praktiki addımlarla bərabər, elmi əsaslarla yazılmış kitablara da böyük ehtiyac var.

***davamı səh. 2-də***

## "Ənənələrdən gələcəyə birlikdəyik!"

Xəbər verildiyi kimi, 29 sentyabr – 2 oktyabr tarixlərində Türkiyənin Bursa vilayətinin İznik rayonunda keçirilən IV Dünya Köçəri Oyunlarında Azərbaycan da geniş heyətlə təmsil olunub. "Ənənələrdən gələcəyə birlikdəyik!" şüarı altında təşkil olunan və ənənəvi milli oyunların və mədəni irsin bir araya gəldiyi yarış-festivalda ölkəmizdən həm idmançılar, həm də sənətçilər iştirak ediblər.

Azərbaycan Mədəniyyət Nazirliyi və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un dəstəyi ilə Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının qrupu, "Cəngi" estrada və folklor ansamblı, solistlər rəngarəng proqramla ölkəmizin zəngin mədəniyyətini festival iştirakçılarına təqdim ediblər.

IV Dünya Köçəri Oyunlarının açılış mərasimində çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirin əhəmiyyətini vurğulayıb və belə festivalların xalqların adət-ənənələrinə bağlılığı və tarixini gənc nəsillərə ötürməsində mühüm hadisə olduğunu deyib.



Rəsmi hissədən sonra açılış mərasiminin bədii hissəsində Azərbaycandan olan kollektivlər və solistlərin çıxışı alqışlarla qarşılanıb.

***davamı səh. 8-də***

## Ömər Faiq Nemanzadənin 150 illik yubileyi qeyd olunacaq

2022-ci ilin dekabr ayında Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, tanınmış maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadənin anadan olmasının 150 ili tamam olur. Prezident İlham Əliyev oktyabrın 3-də görkəmli maarifçi və vətənpərvər ziyalının 150 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda Mədəniyyət Nazirliyinə Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Ömər Faiq Nemanzadənin 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

***səh. 2***

## "INTERACT Film Lab" layihəsinə yekun vurulub



Oktyabrın 3-də Nizami Kino Mərkəzində Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" Kinostudiyasının "INTERACT Film Lab" təlim layihəsinin final təqdimatı keçirilib.

***səh. 3***

## Vətən müharibəsinin ilk qazi şəhəri

### Cəbrayılın işğaldan azad edilməsi böyük Zəfərin başlanğıcı idi

Oktyabrın 4-də Azərbaycanın ən yeni tarixində təqvimə düşən şanlı günlərdən birinin – xalqımızın şərəf və ləyaqət salnaməsi olan Vətən müharibəsində ilk böyük qalibiyyətin ikinci ildönümü tamam oldu.

İki il öncə həmin gün müzəffər Ali Baş Komandan İlham Əliyev Qələbə tvitlərindən birini atdı: "Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!".

Cəbrayıl Vətən müharibəsinin ilk qazi şəhəri oldu. 27 illik işğaldan sonra rəşadətli əsgər və zabitlərimizin canı-qanı bahasına azadlığa qovuşdu. İrəlidə yeni Zəfər soraqlı günlər vardı.

Ali Baş Komandan 2020-ci ilin 4 oktyabrında xalqa müraciətində bu tarixi hadisənin xüsusi əhəmiyyətini vurğuladı: "Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir! Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını töküb. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi. Bu gün Azərbaycan xalqı sevinc içindədir...".

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatının bir həftəsi geridə qalmışdı. Vətən torpağı uğrunda müqəddəs savaşda hər gün qəhrəmanlıq dastanının səhifələri yazılırdı: "Bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına...".

Dövlətimizin başçısı bildirdi ki, biz bu günlər xalqımızın və dövlətimizin yeni tarixini



yazırıq, şanlı tarixini yazırıq, tarixi ədaləti bərpa edirik: "Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar... Biz bütün şəhərləri bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq...".

Yağı tapdağından qurtuluşun ikinci ildönümünü yaşayan Vətən torpaqlarına artıq həyat, quruculuq, abadlıq, ən ümdəsi isə, doğma insan nəfəsi qayıtmaqdadır...

"Natəvan" operası yenidən səhnədə



***səh. 2***

Afrika ölkələrinin UNESCO üzrə milli komissiyalarının nümayəndələri Xalça Muzeyində olublar

***səh. 2***




"Qəhrəmanlar can verir..." layihəsində növbəti sərgi

***səh. 2***

№73 (1946)
5 oktyabr 2022
www.medeniyyet.az

# Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ilin dekabr ayında Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, tanınmış maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadənin anadan olmasının 150 ili tamam olur.

Ömər Faiq Nemanzadə XX əsrin əvvəllərində Azərbaycan mətbuatı tarixinə parlaq səhifələr yazmış və son dərəcə mürəkkəb şəraitdə onun inkişafına istiqamət verərək keyfiyyətcə yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış maarifpərvər ziyalılardandır. Ədəbi-mədəni həyatda mühüm hadisəyə çevrilmiş “Qeyrət” mətbəəsinin və Yaxın Şərq ölkələri ədəbiyyatında demokratik meyillərin güclənməsinə qüvvətli təsir göstərmiş məşhur “Molla Nəsrəddin” jurnalının yaradılması ədibin gərgin və səmərəli fəaliyyətinin ayrılmaz tərkib hissələridir. Ana dilinə sevgini vətənə məhəbbətin ən vacib şərti sayan geniş erudisiyalı, fədakar qələm sahibi doğma xalqının mədəni dirçəlişi, istiqlalı və xoşbəxt gələcəyi naminə bilik və bacarığını əsirgəmədən əzmlə mübarizə aparmışdır. Ümumxalq əhəmiyyəti daşıyan bütün taleyüklü məsələlərin zamanın qabaqcıl ideyaları fonunda daim azərbaycançılıq məfkurəsi cəbhəsindən işıqlandırılması Ömər Faiq Nemanzadənin milli ideyalarla zəngin və dərin siyasi-ictimai məzmuna malik publisistik irsinin başlıca leytmotivini təşkil etmişdir.

Dövrün vətənpərvər ruhlu bir çox şəxsiyyətləri kimi Ömər Faiq Nemanzadə də totalitar sovet rejiminin 1930-cu illər repressiyasının qurbanlarından olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan milli mətbuatının inkişafına dəyərli töhfələr vermiş görkəmli maarifçi-ziyalı Ömər Faiq Nemanzadənin anadan olmasının 150-ci ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Ömər Faiq Nemanzadənin 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 3 oktyabr 2022-ci il**

# AMEA-nın yeni strukturunda 22 elmi müəssisə fəaliyyət göstərəcək

Azərbaycan Milli Elmlər Akademiyasının yeni strukturu və işçilərinin say həddi təsdiq edilib. Bununla bağlı Nazirlər Kabinetinin müvafiq qərarı imzalanıb.

Baş nazir Əli Əsədovun sentyabrın 30-da imzaladığı qərara əsasən, AMEA-nın yeni strukturunda 22 elmi müəssisə fəaliyyət göstərəcək.

Xatırladaq ki, Prezident İlham Əliyevin iyulun 28-də imzaladığı sərəncamla AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri, Kimya Elmləri, Yer Elmləri, Biologiya və Tibb Elmləri bölmələri, habelə Naxçıvan və Gəncə bölmələri üzrə ümumilikdə 37 müəssisə yeni yaradılan Elm və Təhsil Nazirliyinin tabeliyinə verilib.

Nazirlər Kabinetinin qərarı ilə AMEA-nın işçilərinin ümumi say həddi 3510 nəfər müəyyənləşdirilib. AMEA-nın 2015-ci ildə təsdiq edilən əvvəlki strukturda ümumi işçi sayı 11 200 ştat vahidi müəyyən edilmişdi.

# “Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün” layihəsində növbəti tədbir-sərgi

Azərbaycan İstiqlal Muzeyinin 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək və vətənpərvərliyin təbliği məqsədilə ötən ildən həyata keçirdiyi “Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün” layihəsi davam edir.



Oktyabrın 4-də layihə çərçivəsində “Arzular...” adlı tədbir-sərgi gerçəkləşib. Tədbirdə şəhid ailələri, Milli Aviasiya Akademiyasının tələbələri, ictimai birliklərin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Sərgidə əşyaları nümayiş olunan şəhidlərin ailə üzvləri çıxış edərək ölkəmizin ərazi bütövlüyü uğrunda tarix yazan, gənc ömürlərinə böyük qəhrəmanlıqlar sığdıran cəsur Vətən oğullarından bəhs ediblər. Bildirilib ki, 30 ilə yaxın düşmən işğalında olan torpaqların azad olunmasında canından keçən qəhrəman şəhidlərimiz heç vaxt unudulmayacaq, onların əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

Sonda tədbir iştirakçıları muzeydə qorunan, Vətən müharibəsi şəhidləri – polkovnik-leytenant Əfqan Abdurahmanov, mayor Tofiq Kərimov, tibb xidməti leytenantları Turqut Xəlilbəyli, Adil Əfəndiyev, gizirlər Nicat Səmədov, Təbriz Qasımov, əsgər Sərxan Həsənov, Mustafa Babayev və Seymur Mehdiyevə məxsus 120-yə yaxın şəxsi əşyanın nümayiş olunduğu sərgi ilə tanış olublar.

# Milli Kitabxananın silsilə təqdimatları olacaq

VIII Bakı Beynəlxalq Kitab Sərgisində M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən bir neçə kitab və layihənin təqdimatı keçiriləcək.

Oktyabrın 5-də Milli Kitabxananın stendi qarşısında “Şuşa tarixi sənədlərdə (Milli Kitabxananın fondundan)” və “Xurşidbanu Natəvan – 190” mövzusunda nadir kitabların və “Biz səni dirçəldəcəyik, əziz Şuşa!” adlı elektron məlumat bazasının, həmçinin “Şuşa tarixi mənbələrdə” adlı biblioqrafiya kitabının təqdimatı keçiriləcək.

Oktyabrın 6-da Bakı Ekspo Mərkəzinin təqdimat zonasında Azərbaycan Milli Kitabxanası ilə Albaniya Milli Kitabxanası arasında əməkdaşlıq memorandumu imzalanacaq. Həmin gün “Xurşidbanu Natəvan” biblioqrafiya kitabı, eləcə də “Xurşidbanu Natəvan” adlı elektron məlumat bazası təqdim olunacaq.

Oktyabrın 8-də Bakı Ekspo Mərkəzinin təqdimat zonasında Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə layihəsi olan “Qarabağa kitabla gedək!” kitabtoplama kampaniyasına dəstək məqsədilə nəşriyyatlar tərəfindən kitab hədiyyə etmə mərasimi keçiriləcək.

# “Silahın mistik gözəlliyi” sərgisinin kataloqu təqdim edildi

## Anar Kərimov: “Vətən müharibəsində Qələbəmizdən sonra hərb tariximizə ictimai maraq artıb”

*əvvəli səh. 1-də*

Anar Kərimov qeyd etdi ki, tarixən Azərbaycan ustalarının hazırladıqları silahlar həmçinin yüksək sənətkarlıq nümunəsi, dekorativ-tətbiqi sənətin şedevrləri olub: “Bu silahların bir çox nümunələri bu gün dünya muzeylərində qorunur. Yeni nəşr olunan kataloq sübut edir ki, tarixən Azərbaycan dekorativ-tətbiqi sənətinin əsas istiqamətlərindən biri də silahsazlıq və metalişləmə olub”.





Kataloqun müəllifi, muzeyin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Səbuhi Əhmədov nəşrin strukturu və əks olunan materiallar haqqında məlumat verdi. Müəllif 300-dən artıq fotoşəkillə zənginləşdirilmiş, nəfis tərtibatlı kataloqda XVI-XIX əsr Azərbaycan silahlarının növləri, təyinatı və xüsusiyyətlərindən danışdı. Bildirdi ki, kataloqda sözügedən sərgidə nümayiş olunan eksponatların fotoşəkilləri vasitəsilə silahların ümumi görünüşü ilə yanaşı, onların dekorativ tərtibatına da diqqət yetirilib: “Kataloqda yer alan, muzeyin Silahlar və bayraqlar fondunda qorunan soyuq və odlu silahlar Azərbaycan xalqının şanlı hərb tarixi ilə bərabər, sənətkarlığın silahsazlıq sahəsinin də yüksək inkişafını nümayiş etdirir. Bu silahlar eyni zamanda yüksək zövqlə hazırlanmış incəsənət əsərləridir”.

S.Əhmədov Azərbaycanın ənənəvi silahlarının sənətkarlıq irsimizin tərkib hissəsi kimi araşdırılmasının vacibliyindən də bəhs edərək bu istiqamətdə praktik fəaliyyətin əhəmiyyətini diqqətə çatdırdı.

Sonra kataloqun hazırlanmasında əməyi olan şəxslərə Milli Azərbaycan Tarixi Muzeyi adından təşəkkürnamələr təqdim edildi.

Sonda Müdafiə Nazirliyi Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblı hərbi-vətənpərvərlik ruhunda musiqi nömrələri təqdim etdi. Çıxışlar alqışlarla qarşılandı.

Tədbir iştirakçılarına “Silahın mistik gözəlliyi” kataloqu təqdim olundu.

**Savalan Fərəcov**

# Kitabla görüş yeri yenə Bakıdır...

## Müəllif, naşir və oxucuları bir araya gətirən VIII Bakı Beynəlxalq Kitab Sərgisi

*əvvəli səh. 1-də*

Kitab bayramında həmçinin Azərbaycanın tanınmış yazıçı və şairləri, gənc yazarlar, eləcə də məşhur xarici müəlliflər, sənətçilər iştirak edəcəklər. Sərgidə kitab mağazaları, universitetlər, mədəniyyət mərkəzləri, muzeylər və s. qurumların da iştirakı nəzərdə tutulur.

Sərgi çərçivəsində uşaqlar və böyüklər üçün ustad dərsləri, inklüzivlik və digər aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, konfranslar, qiraət və musiqi saatları, kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları təşkil ediləcək. Builki sərgidə ilk dəfə olaraq azyaşlı oxucular üçün spesifik formada “Uşaq dünyası” adlı stend quraşdırılacaq. Sərgi müddətində müxtəlif formatda ümumilikdə 200-dən çox tədbirin təşkili nəzərdə tutulur.

Xalq şairi Ramiz Rövşən və tanınmış şair Aqşin Yenisey VIII Bakı Beynəlxalq Kitab Sərgisinin “fəxri yazarlar”ı olacaqlar. Hər iki müəllifin iştirakı ilə müxtəlif səpkili tədbirlər keçiriləcək. Builki sərginin “fəxri qonaq ölkə”si isə Türkiyədir.



Akif Marifli bildirdi ki, sərgi müddətində 2021-ci ildən Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə həyata keçirdiyi “Qarabağa kitabla gedək!” aksiyası da davam edəcək. Hazırda bu aksiya çərçivəsində işğaldan azad edilmiş ərazilərdə yaradılacaq kitabxanalar üçün 94 min nüsxəyə yaxın kitab toplanıb. Sərginin son günü isə təşkilat komitəsi tərəfindən “Ən yaxşı nəşriyyat” və “Ən yaxşı kitab” nominasiyaları üzrə qaliblər seçiləcək. Şuşaya həsr olunmuş məzmun və poliqrafik baxımdan ən yaxşı kitabı çap etmiş naşir isə mədəniyyət paytaxtımızın 270 illiyi münasibətilə təsis olunan xatirə nişanı ilə təltif ediləcək.

“Caspian Event Organisers” şirkətinin baş direktoru Fərid Məmmədov vurğuladı ki, ötən ilki sərginin 30 mindən çox ziyarətçisi olub. Sərginin keçiriləcəyi Bakı Ekspo Mərkəzində qurulan infrastruktur onu deməyə imkan verir ki, builki sərgidə daha da çox kitabsevər iştirak edəcək.

Sonda media nümayəndələrinin sualları cavablandırıldı.

Qeyd edək ki, sərginin əsas məqsədi Azərbaycan dövlətinin kitab nəşri, kitabın təbliği və yayılması, dərsliklərin, lüğətlərin, tərcümə və elmi ədəbiyyatın işıq üzü görməsinə yönəlmiş qərar və göstərişlərinin mühüm rolunu vurğulamaq, ölkəmizdə kitab sənayesi sektorunun, ədəbi proseslərin və mütaliə mədəniyyətinin inkişafını dəstəkləməkdir.

Sərgi ziyarətçilərinin metronun “Elmlər Akademiyası”, “28 May” və “Koroğlu” stansiyalarından Bakı Ekspo Mərkəzinə xüsusi avtobuslar vasitəsilə gediş-gəlişi təmin ediləcək.

Bakı Ekspo Mərkəzində saat 10:00-dan 20:00-dək açıq olacaq sərgiyə giriş ödənişsizdir.

Ziyarətçilər https://bakubookfair.az/az-register/ linki vasitəsilə qeydiyyatdan keçməklə buraxılış vərəqələrini əldə edə bilərlər. Saytda həmçinin VIII Bakı Beynəlxalq Kitab Sərgisi haqqında əlavə məlumat almaq olar.

**Nurəddin**

# Afrika ölkələrinin UNESCO üzrə milli komissiyalarının nümayəndələri Xalça Muzeyində

ADA Universiteti, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, İnkişaf və Diplomatiya İnstitutunun (ADA Universiteti) birgə təşkilatçılığı ilə Afrikanın 14 ölkəsinin UNESCO üzrə milli komissiyalarının baş katibləri və nümayəndələri üçün keçirilən təlim proqramı çərçivəsində növbəti tədbir Azərbaycan Milli Xalça Muzeyində təşkil edilib.

Muzeydən bildirilib ki, tədbirdə muzeyin direktoru Şirin Məlikova “Mədəniyyətlərarası dialoq: rəngarəng Azərbaycan” mövzusunda çıxış edib. O, Qarabağın, o cümlədən Şuşa şəhərinin tarix və mədəniyyət abidələri, onların otuz ilə yaxın işğal dövründə erməni vandalları tərəfindən dağıdılması, minlərlə eksponatın talan edilməsi haqqında məlumat verib. Muzeyin direktoru hazırda işğaldan azad edilmiş ərazilərdə tarixi-mədəni abidələrin bərpası istiqamətində görülən işləri diqqətə çatdırıb.

Tədbirdən sonra qonaqlar muzeyin ekspozisiyası ilə yaxından tanış olublar. Ş.Məlikova onlara Azərbaycan xalça sənəti, muzeyin tarixi, fəaliyyəti, zəngin kolleksiyaları barədə ətraflı məlumat verib.



Sonda proqram iştirakçılarına Azərbaycan Milli Xalça Muzeyinin kataloqu hədiyyə olunub.

Qeyd edək ki, sentyabrın 24-dən başlayan təlim proqramı oktyabrın 8-dək davam edəcək.



# “Natəvan” yenidən səhnədə

## Vasif Adıgözəlovun operası Xan qızının 190 illiyi münasibətilə nümayiş olunub

“Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında” ölkə başçısının müvafiq sərəncamının icrası ilə bağlı Tədbirlər planına əsasən, Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təşkilatçılığı ilə görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Vasif Adıgözəlovun “Natəvan” operası yenidən səhnəyə qayıdıb.

Tamaşa oktyabrın 2-də, Xurşidbanu Natəvanın (1832-1897) anım günündə Akademik Opera və Balet Teatrında nümayiş olunub. Natəvan partiyasını Böyük Britaniya Kral Musiqi Akademiyasının məzunu, vokalçıların beynəlxalq müsabiqələrinin laureatı Selcan Nəsibli ifa edib. Tamaşada teatrın təcrübəli solistləri (Azər Zeynalov – Xasay bəy, Cahangir Qurbanov – Xasay bəyin əmisi, Tural Ağasıyev – Qarapaltarlı, Təyyar Bayramov – Xanəndə) ilə yanaşı, gənc vokalçılar da yer alıblar. Taleh Yahyayev Qasım bəy Zakir, Mahir Tağızadə Aleksandr Düma, Fəhmin Əhmədli Hacı Abbas Agah, Rəvanə Əmiraslanlı Xanəndə qız partiyalarında çıxış ediblər.

Opera tamaşası ilk dəfə 2003-cü ildə Azərbaycan və Özbəkistanın Xalq artisti, rejissor Firudin Səfərov tərəfindən səhnəyə qoyulub. Tamaşanın musiqi rəhbəri və dirijoru Xalq artisti, professor Yalçın Adıgözəlov, səhnə tərtibatçısı Xalq rəssamı, Dövlət mükafatı laureatı Rafiz İsmayılov, rəqslərin quruluşçusu Xalq artisti Tamilla Şirəliyeva, xormeyster Əməkdar incəsənət xadimi Sevil Hacıyevadır. Bir neçə il ərzində səhnədə olmayan operanı bu dəfə Əməkdar incəsənət xadimi, rejissor Hafiz Quliyev təqdim edib.

Səhnə əsərində Xan qızının həyat və yaradıcılığı ilə bərabər, o dövrdə Qarabağda baş verən ictimai-siyasi hadisələrə də yer verilib və bu günümüzlə səsləşən mövzuya toxunulub.



Xəbər verdiyimiz kimi, 28-30 sentyabr tarixində Meksikanın paytaxtı Mexikoda UNESCO-ya üzv ölkələrin mədəniyyət nazirlərinin Mədəni Strategiya və Dayanıqlı İnkişafa dair Dünya Konfransı ("Mondiacult – 2022") keçirilib. 160 ölkənin təmsil olunduğu konfransda Azərbaycan mədəniyyət naziri Anar Kərimov da iştirak edib.

# İrs və mədəni müxtəliflik böhran dövründə

## Mədəniyyət naziri Anar Kərimov "Mondiacult – 2022" Dünya Konfransında çıxış edib

Konfransda "İrs və mədəni müxtəliflik böhran dövründə", "Yenilənmiş və gücləndirilmiş mədəniyyət siyasəti", "Mədəniyyət dayanıqlı inkişaf üçün", "Yaradıcı iqtisadiyyatın gələcəyi" mövzularında müzakirələr aparılıb.

Sentyabrın 29-da Anar Kərimov "İrs və mədəni müxtəliflik böhran dövründə" mövzusuna həsr olunmuş sessiyada çıxış edib.

Nazir çıxışında tədbir iştirakçılarının diqqətini Azərbaycanın otuz ilə yaxın Ermənistanın işğalı altında olmuş ərazilərində törədilmiş etnik-mədəni soyqırımına yönəldib. Bildirib ki, işğal dövründə Azərbaycanın mədəni irsinə qarşı misli görünməmiş, sistemli və məqsədyönlü əməllər nəticəsində çox sayda məscidlər, tarixi abidələr, müxtəlif mədəniyyət müəssisələri tamamilə dağıdılıb. Təəssüf ki, ölkəmizin tarixi-mədəni irsinə qarşı bu soyqırımı əməlləri beynəlxalq təşkilatlar tərəfindən sükutla qarşılanıb.

Diqqətə çatdırılıb ki, 2020-ci ildə Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra bu ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri başlanıb və bu kontekstdə mədəni irsin bərpası xüsusi əhəmiyyət kəsb edir. Vurğulanıb ki, bu proses mənşəyindən asılı olmayaraq bütün mədəni və dini abidələri əhatə edir. Anar Kərimov çıxışında işğaldan azad edilmiş ərazilərə texniki missiya göndərilməsi ilə bağlı UNESCO-ya növbəti dəfə çağırış da ünvanlayıb.

Anar Kərimov ölkəmizin yeni təşəbbüsü olan "Mədəniyyət naminə sülh" qlobal çağırışı haqqında da konfrans iştirakçılarına məlumat verib. Bildirilib ki, bu təşəbbüs 2008-ci ildən Azərbaycan tərəfindən irəli sürülmüş, mədəniyyətlərarası dialoqu təşviq edən "Bakı Prosesi" üçün bir müstəvidir. Sözügedən qlobal çağırış dayanıqlı sülhün mədəniyyətə töhfəsinə vurğu etməklə, dünyanın müxtəlif bölgələrində mövcud postmünaqişə vəziyyətlərində sülhün təşviqi modeli kimi tətbiq edilə bilər.

Sessiya zamanı mədəniyyət naziri ölkəmizin Qoşulmama Hərəkatının (QH) sədri qismində QH ölkələri adından bəyanat da səsləndirib. Bəyanatda QH ölkələri irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və dözümsüzlüyün bütün formalarını pisləyir, mədəni mülkiyyətin qorunması üçün milli, regional və beynəlxalq təşəbbüslərin əhəmiyyətini qeyd edir.

# Beynəlxalq konfrans çərçivəsində görüşlər

Mədəniyyət naziri Anar Kərimov Meksika paytaxtındakı "Mondiacult – 2022" Dünya Konfransı çərçivəsində bir sıra görüşlər də keçirib.



### Albaniyada Azərbaycan mədəniyyət həftəsi keçirilə bilər

Albaniyanın mədəniyyət naziri Elva Marqariti ilə görüşdə iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu, bu kontekstdə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsinin xalqlar arasında mədəni bağların gücləndirilməsinə töhfə verə biləcəyi qeyd edilib.

2023-cü ildə Azərbaycanla Albaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin tamam olacağını deyən E.Marqariti Albaniya tərəfinin gələn ilin ilk yarısında Azərbaycan mədəniyyət həftəsinə ev sahibliyi etməyə hazır olduğunu bildirib.

Görüşdə iki ölkə arasında UNESCO çərçivəsində əməkdaşlığın mədəniyyətin müxtəlif sahələrində ikitərəfli əlaqələrə də zəmin ola biləcəyi vurğulanıb.



### Andorra ölkəmizlə əməkdaşlıqda maraqlıdır

Anar Kərimov Andorranın mədəniyyət və idman naziri Silvia Riva Qonzalezlə də görüşüb. Görüş zamanı Andorranın "Youth ArtCamp Shusha and Baku" layihəsinə verdiyi dəstəyə görə təşəkkür bildirilib, bu layihənin ölkələr arasında mədəniyyət sahəsində əməkdaşlıq üçün əlverişli platforma olduğu qeyd edilib. Andorralı nazir ölkəsinin bu əməkdaşlıqda maraqlı olduğunu bildirib.

Bununla yanaşı, UNESCO çərçivəsində əməkdaşlıq və birgə fəaliyyətlər üçün imkanlara diqqət çəkilib. Həmçinin Azərbaycan tərəfindən irəli sürülmüş "Bakı Prosesi" və onun vacib yeni ölçüsü olan "Mədəniyyət naminə sülh" qlobal çağırışına dəstək və bu çərçivədə birgə layihələrin reallaşdırılmasının önəminə vurğu edilib.

### UNESCO-ya daha bir çağırış

Nazir Anar Kərimovun UNESCO Baş direktorunun mədəniyyət məsələləri üzrə müavini Ernesto Ottone ilə də görüşündə ölkəmizin təşkilatla münasibətlərinə nəzər salınıb. Azərbaycanın təşkilatla əməkdaşlıqda maraqlı olduğu, bir sıra mühüm istiqamətlərdə, xüsusilə də mədəniyyətlərarası dialoq və UNESCO-nun tərəfdaşı olduğu "Bakı Prosesi" çərçivəsində davamlı fəaliyyətin təmin edilməsinin vacibliyi vurğulanıb.

Bununla yanaşı, Anar Kərimov tərəfindən UNESCO-nun öz mandatına uyğun fəaliyyət göstərməsinin vacibliyi qeyd olunub. İndiyədək edilən çağırışlara rəğmən UNESCO-nun işğaldan azad edilmiş ərazilərə missiya göndərməməsinin Azərbaycan cəmiyyətində haqlı anlaşılmazlıq və suallar doğurduğu nəzərə çatdırılıb. Nazir UNESCO-nu bu texniki səfəri tezliklə reallaşdırmağa çağırıb. UNESCO rəsmisinə həmçinin ölkəmizin təşəbbüsü olan "Mədəniyyət naminə sülh" qlobal çağırışına dair məlumat verilib, dünyanın müxtəlif bölgələrində sülh quruculuğu fəaliyyətlərinə töhfə vermək niyyətini bəyan etmiş bir təşkilat kimi UNESCO-nun ölkəmizin sözügedən təşəbbüsünə soyuq münasibət nümayiş etdirməsinin məyusluq doğurduğu bildirilib.

E.Ottone öz növbəsində təmsilçisi olduğu təşkilatın qeyd olunan məsələlərlə bağlı Azərbaycanla təmaslarının davam etdirilməsinə, eyni zamanda yaradıcı iqtisadiyyat kimi yeni sahələrdə əməkdaşlıq imkanlarının və mümkün fəaliyyətlərin yaxından araşdırılmasına hazır olduqlarını deyib.

### Serbiya və Meksika ilə mədəni işbirliyi üçün imkanlar

Anar Kərimovun Serbiya mədəniyyət və informasiya nazirinin müavini Stanko Blaqoyeviçlə görüşündə iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın da genişləndirilməsinin vacibliyinə toxunulub. Bu kontekstdə hər iki ölkədə qarşılıqlı mədəniyyət günlərinin təşkilinin bu prosesə töhfə verəcəyi qeyd edilib. Həmçinin UNESCO çərçivəsində ölkələr arasında əməkdaşlığın uğurla inkişaf etdiyi və bu platformada qarşılıqlı dəstək kimi məsələlərin mühüm əhəmiyyəti vurğulanıb.

***



Səfər çərçivəsində daha bir görüş Meksika mədəniyyət nazirinin müavini Marina Nunyez Bespalova ilə keçirilib. Anar Kərimov Meksika rəsmisinə Azərbaycan ərazilərinin erməni işğalı zamanı mədəni irsinə vurulmuş ziyan, işğaldan azad edilmiş ərazilərdə görülən bərpa işləri, ölkəmizin mədəniyyət siyasəti ilə bağlı ətraflı məlumat verib. Mədəni mübadilələrin iki ölkə arasında bu sahədə əməkdaşlığa töhfə verəcəyi vurğulanıb. Meksikalı həmsöhbət mədəni irsin qorunması və mədəniyyət obyektlərinin qeyri-qanuni alverinə qarşı mübarizə sahəsində ölkəsinin geniş təcrübəyə malik olduğunu və Azərbaycana bu sahələrdə təlim və ekspert yardımı göstərə biləcəklərini deyib. Azərbaycanın Meksikada tanıdılması üçün bu ölkədə Azərbaycan mədəniyyət günlərinin təşkilinin mühüm rol oynaya biləcəyi qeyd olunub.

***

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 30-da Meksikada fəaliyyət göstərən aparıcı media təşkilatları və beyin mərkəzlərinin nümayəndələri ilə görüşüb.

Görüş zamanı nazir erməni işğalı nəticəsində Azərbaycanın mədəni irsinə vurulmuş ziyan, işğaldan azad edilmiş ərazilərdə mədəni irsin bərpası istiqamətində görülən işlər və nəzərdə tutulan tədbirlərə dair məlumat verib.

Ümumilikdə işğaldan azad edilmiş ərazilərdə 2600-dən artıq tarixi-mədəni abidənin mövcudluğu, bunlardan 706 abidənin dövlət qeydiyyatında olduğu və onların da böyük əksəriyyətinin dağıdıldığı vurğulanıb. Məscidlərin dağıdıldığı və İslam dininə qarşı həqarət olaraq bu məkanlarda heyvanların saxlanıldığı diqqətə çatdırılıb. Eyni zamanda kilsələrin də vandalizmə məruz qaldığı qeyd olunub. Azərbaycan hökumətinin bu ərazilərdə mədəni irsin bərpası istiqamətində davamlı işlər gördüyü, dağıntılara məruz qalmış mənşəyindən asılı olmayaraq bütün tarixi-mədəni abidələrin bərpasında qətiyyətli olduğuna diqqət çəkilib.

Görüş zamanı həmçinin əsrlər boyu Azərbaycanda formalaşmış tolerantlıq ənənələrinə dair məlumat verilib, bu sahədə ölkəmizin müxtəlif təşəbbüslərinin olduğu qeyd olunub, mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" və "Mədəniyyət naminə sülh" qlobal çağırışı çərçivəsində nəzərdə tutulan fəaliyyətlərə dair məlumat təqdim edilib.

Anar Kərimovun konfransda çıxışı, habelə bir sıra ikitərəfli görüşləri və eksklüziv müsahibələri Meksika mediasında geniş yayılıb.

# Firəngiz Əlizadənin əsərləri ifaçılarımız və musiqi elmimiz üçün dəyərli mənbədir

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor, UNESCO-nun "Sülh artisti" Firəngiz Əlizadə ilə yaradıcılıq görüşü keçirilib.



Əvvəlcə muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova çıxış edərək bəstəkarın musiqi mədəniyyətimizin inkişafında xidmətlərindən danışıb.

Bildirilib ki, daim yaradıcılıq axtarışında olan Firəngiz Əlizadənin əsərlərinin sədası dünyanın ən məşhur konsert salonlarından gəlir. Firəngiz xanımın hər bir uğuru Azərbaycan musiqisinin geniş miqyasda nüfuzunun artmasına xidmət edir. Bəstəkarın yaradıcılığı musiqişünaslar üçün əsl tədqiqat mənbəyidir. Onun yaradıcılığına dair bir sıra elmi tədqiqat işləri yazılıb, əsərləri dissertasiya səviyyəsində araşdırılıb. Firəngiz xanımın yaradıcılığı yalnız ifaçılarımız üçün deyil, musiqi elmimiz üçün də dəyərli bir mənbədir.

Tədbirdə "Firəngiz Əlizadənin yaradıcılıq səhifələri" sənədli filminin təqdimatı da keçirilib.

Nümayişdən sonra mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Milli Məclisin deputatı Aydın Mirzəzadə, Xalq artisti, tarzən Ramiz Quliyev, Bakı Musiqi Akademiyasının prorektoru, Əməkdar incəsənət xadimi Gülnaz Abdullazadə çıxış edərək film haqqında təəssüratlarını bölüşüb, Firəngiz Əlizadənin Azərbaycan musiqi mədəniyyətinin inkişafında və təbliğində müstəsna xidmətlərindən danışıblar.

Əməkdar artist Rəna Rzayeva bəstəkarın fortepiano üçün əsərini ifa edib.

Sonda Firəngiz Əlizadə gələcək yaradıcılıq planlarından danışıb.

# Eldar Mansurovun yubileyi münasibətilə konsert

Oktyabrın 2-də Heydər Əliyev Sarayında Xalq artisti, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli bəstəkar Eldar Mansurovun 70 illik yubileyi münasibətilə konsert keçirilib.




Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Akademik Filarmoniyası və Heydər Əliyev Sarayının təşkilatçılığı ilə gerçəkləşən tədbirdə Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor – Xalq artisti Cavanşir Cəfərov), Azərbaycan Dövlət Rəqs Ansamblı (bədii rəhbər – Xalq artisti Rüfət Xəlilzadə), Xalq artistləri Mübariz Tağıyev, Flora Kərimova, Cavan Zeynallı, Brilliant Dadaşova və digər solistlərin iştirakı ilə bəstəkarın bir-birindən maraqlı musiqi nömrələri təqdim olunub.

Sonda çıxış edən yubilyar gecənin təşkilində dəstəyinə görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib.

# "INTERACT Film Lab" layihəsinə yekun vurulub

## 32 iştirakçıya sertifikat verilib



Oktyabrın 3-də Nizami Kino Mərkəzində Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" Kinostudiyasının "INTERACT Film Lab" təlim layihəsinin final təqdimatı keçirilib.

Tədbirdə mədəniyyət naziri Anar Kərimov, "Azərbaycanfilm" Kinostudiyasının direktoru Nazim Hüseynov, müstəqil kino təşkilatlarının təmsilçiləri, kino mütəxəssisləri iştirak ediblər.

Layihə meneceri Mələk Bayramlı çıxış edərək bildirib ki, təlim kursunun məqsədi peşəkar mütəxəssislər yetişdirərək ölkənin kino sənayesinin inkişafına təkan verməkdir. Qeyd edilib ki, 150-dən çox gəncin qatıldığı layihə may ayında start götürüb. Keçirilən mərhələli müsahibələrdən sonra 60 gənc "INTERACT Film Lab" iştirakçısı olmaq imkanını qazanıb.

"INTERACT Film Lab"ın kommunikasiya meneceri Nəzrin Ağarzayeva bildirib ki, 6 ay davam edən layihə çərçivəsində xaricdən dəvət olunan kino mütəxəssisləri yerli tələbələrlə nəzəri və praktiki dərslər keçiblər. Kino sənayesinin 5 əsas sahəsi – rejissorluq üzrə Natalya Merkulova, ssenari yaradıcılığı üzrə Aleksey Çupov, təsvir rejissorluğu üzrə Yevgeni Rodin, quruluşçu rəssamlıq üzrə Quram Navrozaşvili və prodüser ixtisası üzrə Valeriya Lebid öz bilik və bacarıqlarını iştirakçılarla bölüşüb. Layihə boyunca bir sıra tanınmış xarici və yerli kino mütəxəssisləri dərslərdən əlavə, tələbələrlə bir araya gələrək yaradıcılıq istiqamətində söhbətlər aparıb.

Tədbirdə həmçinin xarici mütəxəssislər intensiv şəkildə reallaşdırılan dərslər və bu proqramda iştirak edən gənc kadrlar haqqında fikirlərini bölüşüblər. Eyni zamanda layihənin başladığı tarixdən etibarən iştirakçı və mentor əlaqələrini, onların nəzəri və praktiki dərslər zamanı görüntülərini əks etdirən videoçarx nümayiş olunub.

Sonra layihə iştirakçılarının komanda halında ərsəyə gətirdiyi final yaradıcılıq işləri təqdim olunub. Kino sahəsi mütəxəssislərindən ibarət münsiflər heyəti təqdim olunan yaradıcılıq işlərindən seçim edərək növbəti mərhələ üçün Mədəniyyət Nazirliyinə bununla bağlı məlumat verəcək.

Təqdimatın sonunda bu proqramı uğurla tamamlamış 32 iştirakçıya sertifikatlar təqdim olunub.

№73 (1946)
5 oktyabr 2022
www.medeniyyet.az

# “İpək Yolu” ilə “Odlar Yurdu”nu gəzərkən

## “Dünya xəzinələri – Azərbaycan” filminin təqdimatı keçirilib

Xəbər verdiyimiz kimi, BBC telekanalında “Dünya xəzinələri” sənədli filmlər silsiləsinin müəllifi Bettani Hyuzun təqdimatında Azərbaycana həsr olunmuş film yayımlanıb. Heydər Əliyev Fondu və Britaniyanın bp şirkətinin birgə tərəfdaşlığı ilə hazırlanan filmdə paytaxt Bakı ilə yanaşı UNESCO-nun Dünya İrsi Siyahısına daxil olan Qobustan qoruğu və Şəkidən, eləcə də Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan bəhs olunur.

“Dünya xəzinələri – Azərbaycan” (“Treasures of the World – Azerbaijan”) filmi sentyabrın 29-da Heydər Əliyev Mərkəzində nümayiş olunub.

Təqdimatda çıxış edən bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz ölkəmizdəki fəaliyyətlərinin 30-cu ildönümündə Azərbaycanın beynəlxalq miqyasda təbliğinə belə bir töhfə verməkdən qürur və şərəf duyduğunu deyib. Vurğulayıb ki, bu film bp üçün Azərbaycanın qonaqpərvərliyini dünyaya nümayiş etdirmək baxımından gözəl fürsətdir. Layihədə əməyi olan hər kəsə, tərəfdaşlığa görə Heydər Əliyev Fonduna minnətdarlığını bildirən Q.Counz “Ümid edirik ki, Azərbaycanı dünyanın mədəniyyət xəzinəsinin bir incisi kimi təqdim edən filmdən milyonlarla insan böyük zövq alacaq”, – deyə əlavə edib. O, həmçinin filmin ərsəyə gəlməsində yüksək texniki dəstəyə görə Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevaya təşəkkür edib.

Premyeradan öncə “Dünya xəzinələri” sənədli filmlər layihəsinin ssenari müəllifi və təqdimatçısı, tarixçi-yazar, professor Bettani Hyuz da çıxış edib.

İlk dəfə Azərbaycana tarixçi kimi gəldiyini deyən Bettani Hyuz dünyada ən qədim rəvayətlərin hamısının Cənubi Qafqaza gətirib çıxardığını söyləyib. “Azərbaycan xalqı qonaqpərvərdir.




Azərbaycan qonaqpərvərliyin əsl diyarıdır. Azərbaycanın təbiəti və mədəniyyəti çox zəngindir. Budur insan və təbiət dünyasının möcüzələri: gözəllik, sülh və qonaqpərvərlik”, – deyə o bildirib.

Qeyd edək ki, professor Bettani Hyuz Azərbaycanın tarix və mədəniyyətini araşdırmaq və geniş marağa səbəb olan filmlərindən birini ölkəmizə həsr etmək üçün 2022-ci ilin iyun ayında Azərbaycana səfər etmiş və çəkilişlər aparmışdı.

Sonra ekran əsəri nümayiş etdirilib.

Film boyunca Bettani Hyuz Azərbaycanın möhtəşəm təbiətini, mədəniyyətini heyranlıqla təqdim edir: yerin altından çıxan qazın alovlarından tutmuş on min illərlə yaşı olan qədim qayaüstü rəsmlərədək. Onun fikrincə, Qafqazın unikal mədəni irsini bu diyarda kəşf etmək mümkündür.

Tamaşaçılar filmdə Şuşanın gözəlliyinin əks olunduğu kadrları alqışlarla qarşılayıblar. Müəllif bir tərəfdən Xurşidbanu Natəvanın humanist motivli poeziyasına diqqət çəkir, digər tərəfdən Vaqifin muzey-məqbərə kompleksinin gözəlliyindən, onun inşa edilməsi tarixindən söz açır, eləcə də şairin poeziyasına toxunur. Cıdır düzünü əks etdirən kadrlar isə Qarabağ atları, çövkən oyunu haqqında maraqlı məlumatlarla müşayiət olunur.

Ölkəmizdən heyranlıqla danışan müəllif filmin sonunda “Azərbaycanın dünyada misli-bərabəri yoxdur” qənaətinə gəlir.

Qeyd edək ki, film BBC telekanalı vasitəsilə iki bölümdə nümayiş olunub. “İpək Yolu” adlı bölümün çəkilişləri Qobustan və Şəkini, “Odlar Yurdu”nun çəkilişləri isə Bakı və Şuşanı əhatə edib.

Film Böyük Britaniyanın “Sandstone Global Productions” şirkəti tərəfindən Bakı Media Mərkəzinin dəstəyi ilə ərsəyə gəlib.

Heydər Əliyev Fondu və bp Azərbaycan auditoriyası üçün filmin Azərbaycan və ingilis dillərində 60 dəqiqəlik tam versiyasını da hazırlayıb.

# “Ahıllara hörmət mənəvi borcumuzdur”

Ağstafa RMİ Ağstafa rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə 1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə tədbir keçirilib. Tədbirdə əlamətdar gün barədə məlumat verilib. Bildirilib ki, 1990-cı ildə BMT-nin Baş Assambleyası 1 oktyabr tarixinin Beynəlxalq Ahıllar Günü kimi qeyd olunması barədə qətnamə qəbul edib.



Tovuz rayon Heydər Əliyev Mərkəzi və rayon MKS-nin Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə “Ahıllara hörmət mənəvi borcumuzdur” mövzusunda tədbir keçirilib.

Qazax Dövlət Rəsm Qalereyasında isə “Ağsaqqal sözü haqq sözüdür” başlığı altında tədbir təşkil edilib. Qalereyanın direktoru Münəvvər Xəlilova ölkəmizdə ahıl insanların sosial müdafiəsinin gücləndirilməsi və hüquqlarının təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər barədə qonaqlara məlumat verib.

# Mədəni irsi qorumaq uğrunda...

## Elmi Bərpa Mərkəzi 65 yaşını qeyd edir

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyində Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin (MSXƏEBM) yaranmasının 65 illiyinə həsr olunmuş “Mədəni irsi qorumaq naminə – 65” mövzusunda seminar-sərgi keçirilib. Tədbirdə mərkəzin əməkdaşları və Masallının mədəniyyət işçiləri iştirak ediblər.



Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyeva tədbir iştirakçılarını salamlayaraq Elmi Bərpa Mərkəzinin kollektivini 65 illik yubileyləri münasibətilə təbrik edib.

MSXƏEBM-in baş mühafizi Pakizə Almazova mərkəzin yaranma tarixi haqqında məruzə edib. Mərkəzin elmi işlər üzrə direktor müavini İranə İbrahimova isə Masallı Tarix-Diyarşünaslıq Muzeyinin fondunda olan eksponatların bərpası və onların birgə əməkdaşlığından söz açıb.

Elmi Bərpa Mərkəzinin direktoru, Əməkdar mədəniyyət işçisi Zərifə Məlikova qurumun fəaliyyəti haqqında geniş məlumat verib. Bildirib ki, Azərbaycanda muzey sərvətlərinin bərpası işinin təməli 1957-ci ildə ilk peşəkar bərpaçı-rəssam Fərhad Hacıyev tərəfindən qoyulub. İlk illərdə mərkəzdə yalnız rəngkarlıq və qrafika əsərləri bərpa olunurdu. Bu gün isə mərkəzin vəzifəsi bərpaya ehtiyacı olan muzey əşyalarının qeydiyyata alınması, konservasiya işlərinin həyata keçirilməsi, muzeylərdə əşyaların mühafizə vəziyyətinin yoxlanılması və lazımi məsləhətlərin verilməsindən ibarətdir.

Sonda tədbir iştirakçıları “Tarix yaşadan eksponatlar” adlı sərgi ilə tanış olublar.

# Quba Soyqırımı Memorial Kompleksi ərazisində qanunsuz tikintinin qarşısı alınıb

Xəbər verildiyi kimi, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən Quba Soyqırımı Memorial Kompleksinin ərazisində qanunsuz tikinti işlərinin qarşısı alınıb.

Dövlət Xidmətinin rəisi Azad Cəfərli oktyabrın 3-də Quba Soyqırımı Memorial Kompleksində olub, əraziyə baxış keçirib. Məlumat verilib ki, Dövlət Xidməti, rayon İcra Hakimiyyəti və digər aidiyyəti dövlət qurumlarının operativ müdaxiləsi nəticəsində tikinti işləri dayandırılıb.

Azad Cəfərli diqqətə çatdırıb ki, kompleksin ərazisində həyata keçiriləcək hər hansı bir fəaliyyət ancaq qanunvericiliyin tələbləri çərçivəsində icra oluna bilər. Mühafizə zonasında kompleksin fəaliyyət istiqamətindən kənar hər hansı bir hərəkət yolverilməzdir.

Xidmət rəisi bildirib ki, məsələnin həlli ilə bağlı müvafiq məhkəmə instansiyalarına da müraciət edilməsi istisna deyil.

Azad Cəfərli Soyqırımı Memorial Kompleksinin fəaliyyəti, yaranacaq bu cür halların operativ şəkildə aradan qaldırılması üçün tapşırıq və tövsiyələrini verib.

# Qəhrəmanlıq salnaməsi yazanların xatirəsi əziz tutulur




Ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğu, düşmən üzərində tarixi Zəfər çaldığımız 2020-ci ilin 44 günlük Vətən müharibəsinin ikinci ildönümünü yaşayırıq. Xalqımıza əbədi Qələbə ruhu bəxş edən qəhrəman şəhidlərimizin xatirəsi daim yad olunur, adları əbədiləşdirilir.

Qubanın Davudoba kəndində şəhid gizir Orxan Cabbarovun xatirəsini əbədiləşdirmək məqsədilə inşa olunan abidə-bulaq kompleksi istifadəyə verilib. Orxan Cabbarov Vətən müharibəsində Cəbrayıl və Füzuli cəbhələrində qəhrəmanlıqla döyüşüb. Göstərdiyi şücaətə görə 3-cü dərəcəli “Rəşadət” ordeni, Cəbrayıl, Xocavənd və Füzulinin azad olunmasına görə medalları ilə təltif edilib. Qəhrəman döyüşçü 2021-ci il noyabrın 16-da Kəlbəcər rayonu istiqamətində erməni təxribatının qarşısını alarkən şəhidlik zirvəsinə ucalıb.

***



Şəki RMİ Oğuz rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Vətən müharibəsi şəhidi Məhəbbət Paşayevin şəhadətinin ildönümü münasibətilə ailəsinə baş çəkiblər. Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kollektivi də Məhəbbət Paşayevin məzarını ziyarət edib, üzərinə tər çiçəklər düzüblər.

***

Kürdəmirin Qarabucaq kəndində I Qarabağ müharibəsi şəhidi Qalib Alşan oğlu Əliyevin xatirəsinə tikilən bulağın açılışı olub. Tədbirdə rayon rəhbərliyi, şəhid ailələri, kənd sakinləri, ictimaiyyət nümayəndələri və məktəblilər iştirak ediblər. Qalib Əliyev 1970-ci il oktyabrın 1-də Qarabucaq kəndində dünyaya göz açıb. Rusiyada SSRİ ordusu sıralarında xidmətini başa vurduqdan sonra Kürdəmirdə 5 nömrəli dəmiryolu sahəsində fəhlə işləyib. I Qarabağ müharibəsində Xocalı istiqamətində, Fərrux dağında döyüşdə şəhidlik zirvəsinə ucalıb.

***



Tərtər rayon Umudlu kənd tam orta məktəbində şəhidlərin xatirəsinə inşa edilmiş bulağın açılışı olub. Tədbirdə çıxış edən rayonun icra başçısı Müstəqim Məmmədov bildirib ki, Umudlu kəndi Birinci Qarabağ müharibəsində 5, Vətən müharibəsində isə 3 şəhid verib.

***

Sumqayıt RMİ Sumqayıt şəhər Qara Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbinin kollektivi Vətən müharibəsi şəhidi Şirbala Hüseynovun ailəsini ziyarət edib.

***

Şamaxıda Vətən müharibəsi şəhidi, Qobustan şəhər Rəşid Behbudov adına Uşaq incəsənət məktəbinin müəllimi olmuş Rauf Əliyevin anım günü keçirilib. Tədbirdə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, İsmayıllı RMİ-nin Şamaxı rayonu üzrə baş məsləhətçisi Rəfail Tağızadə və digərləri iştirak ediblər.

Şamaxının Ovçulu kəndində Vətən müharibəsinin şəhid kapitanı Niyət Şirəliyevin xatirəsinə inşa olunan bulaq kompleksi açılıb. Açılış mərasimində rayon rəhbərliyi, Milli Məclisin deputatı Tamam Cəfərova, şəhidin yaxınları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

***



Göyçayda Vətən müharibəsi şəhidi İntiqam Bəxtiyar oğlu Şirəliyevin vaxtilə təhsil aldığı Potu kənd tam orta məktəbinin girişində quraşdırılan barelyefi açılıb. İntiqam Şirəliyev 1997-ci il oktyabrın 8-də Potu kəndində anadan olub. Əsgərliyini başa vurduqdan sonra 2019-cu ildən müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başlayıb. Vətən müharibəsinin üçüncü günü, sentyabrın 29-da Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ölümündən sonra “Vətən uğrunda”, “İgidliyə görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

***



Cəlilabad şəhər 2 nömrəli tam orta məktəbin həyətində Vətən Müharibəsi Qəhrəmanı şəhid kapitan Rəşad Abdullayevin büstünün açılışı olub. Mərasimdə rayonun icra başçısı Rafiq Cəlilov, şəhidin valideynləri Arif Abdullayev və Sevil Abdullayeva, digər çıxış edənlər tarix yazan igid oğulların gələcək nəsillərə örnək olduğunu bildirib.

Rəşad Abdullayev 1988-ci ildə Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub. O, Vətən müharibəsi zamanı sentyabrın 29-da Murovdağ uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olub.



Ağdaş RMİ Zərdab rayon Heydər Əliyev Mərkəzində “Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin təməlində duran siyasi irsi” mövzusunda tədbir keçirilib. Tədbirdə çıxış edənlər 2023-cü ilin Azərbaycanda “Heydər Əliyev İli” elan edilməsini ulu öndərin Azərbaycanın ən yeni tarixinin 35 ilə yaxın dövründə Azərbaycan xalqı, dövlətçiliyimiz, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda yorulmaz fəaliyyətinə və misilsiz xidmətlərinə verilən yüksək dəyər olduğunu qeyd ediblər.

***

Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə Mədəniyyət Nazirliyi və Dövlət İmtahan Mərkəzinin birgə təşkil etdiyi müəllimlərin işə qəbulu müsabiqəsinin hər iki mərhələsində uğur qazanaraq Hacıqabul şəhər Uşaq musiqi məktəbinə xanəndə müəllimi təyin olunan Xəqani Niftəliyevlə görüşüb. İdarə rəisi müəllimi təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Bölgələrdə müxtəlif səpkili tədbirlər

***

Şəmkir RMİ-nin rəis vəzifəsi üzrə əmək funksiyalarını icra edən Nurəddin Mehdiyev Daşkəsən rayonunda fəaliyyət göstərən mədəniyyət müəssisələrinə baxış keçirib.

***

Biləsuvar RMİ Neftçala rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Neftçala peşə məktəbində görüş keçiriblər. Məktəbdə təhsil alanlara “Heydər Əliyev ideyaları Azərbaycanı müasirliyə aparır” mövzusunda mühazirə söylənilib.

***



Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı regional idarənin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərində əmək fəaliyyətinə başlayan gənc müəllimlərlə görüşüb, onlara yeni tədris ilində uğurlar arzulayıb. İdarə rəisi müəllimlərin fikirlərini dinləyib, onları maraqlandıran sualları cavablandırıb.

***



Gəncə RMİ-nin təşkilatçılığı ilə görkəmli yazıçı, böyük alim və pedaqoq Mir Cəlal Paşayevin (1908-1978) anım günü keçirilib. Tədbirdə çıxış edən Gəncə RMİ-nin rəisi Vasif Cənnətov və digər qonaqlar ədibin həyat və fəaliyyətindən, yaradıcılığından danışıblar. Yaşlı nəslin nümayəndələri Mir Cəlal Paşayevlə bağlı xatirələrini bölüşüblər. Bədii hissədə Gəncə şəhər 2 və 4 nömrəli uşaq musiqi məktəblərinin müəllimləri Türkan Aslanova, Elməddin Qulamov və Sadiq Əlizadənin ifasında xalq mahnıları səsləndirilib.

***

Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev regional idarənin tabeliyində olan mədəniyyət müəssisələrinin rəhbərləri ilə müşavirə keçirib. Sumqayıt şəhər Poeziya evində keçirilən müşavirədə gündəlikdə duran bir sıra məsələlər, cari problemlər və gələcək perspektivlər müzakirə olunub.

**Hazırladı: N.Məmmədli**

# "Şuşa söhbətləri"ndə daha bir görüş

## Şanlı Zəfərimizə və mədəniyyət paytaxtımıza həsr olunan ekran əsərlərindən söz açıldı

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi "Şuşa İli" münasibətilə mart ayından "Şuşa söhbətləri" (Shusha talks) layihəsini həyata keçirir. Sentyabrın 30-da Beynəlxalq Muğam Mərkəzində layihə üzrə "Tarixi Zəfərimizə və mədəniyyət paytaxtımız Şuşaya həsr olunmuş ekran əsərləri" mövzusunda üçüncü görüş təşkil olundu. Görüşdə tanınmış kino xadimləri, ictimaiyyət nümayəndələri iştirak edirdi.








Tədbiri açıq elan edən Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə layihə haqqında məlumat verdi. Bildirdi ki, Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin 270 illiyi münasibətilə ölkəmizdə "Şuşa İli" elan edilib: "Mədəniyyət Nazirliyi olaraq məqsədimiz Şuşa mədəniyyətinin dirçəlişi üçün bir sıra istiqamətlərdə layihələr həyata keçirməkdir. Layihənin əsas məqsədi Qarabağın, onun tacı Şuşanın dirçəlişi ilə bağlı mədəniyyət sahəsində tanınmış şəxslərin fikirlərini öyrənməkdən ibarətdir. İlk görüşdə bir neçə təşəbbüs irəli sürülüb və uğurla reallaşdırılıb. Bugünkü görüş də bu ideyaya xidmət edir. Layihə çərçivəsində ictimaiyyət nümayəndələri, mədəniyyət və incəsənət xadimləri, blogerlər və yaradıcı sənayenin nümayəndələrinin "Şuşa İli" ilə bağlı nazirliklə əməkdaşlığını genişləndirmək məqsədilə görüşlər keçiriləcək, fikir mübadiləsi aparılacaq".

Məryəm Qafarzadə dedi ki, nazirliyin bütün layihələrində Şuşanın tarixi-mədəni zənginlikləri həm Azərbaycanda, həm də beynəlxalq aləmdə təbliğ olunacaq.

Sonra Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin sektor müdiri Rüfət Əliyev çıxış edərək son iki ildə nazirlik tərəfindən Qarabağ və Vətən müharibəsi mövzusunda lentə alınan ekran əsərləri haqqında məlumat verdi. Bildirdi ki, bu müddətdə 70-dən artıq film istehsalata buraxılıb. Bunlardan 30 ekran əsərinin istehsalı başa çatıb. Bu filmlər sırasında ictimaiyyətə təqdim olunan "Biz", "Fulya", "Böyük qırmızı ev" və digərlərinin adlarını çəkə bilərik. Həmçinin "Həyat, deyəsən, gözəldir" ("Fəryad-2") bədii filminin çəkilişləri də yekunlaşıb. Bundan əlavə, İctimai Televiziya ilə birlikdə "Görünməyən qəhrəmanlar" silsiləsindən 10 film lentə alınaraq tamaşaçıların ixtiyarına verilib. 2021-ci ildə elan edilən "Böyük Qayıdış" ssenari müsabiqəsinin qalib işlərinin də çəkilişlərinin yekunlaşdığını diqqətə çatdıran sektor müdiri qeyd etdi ki, "Salnaməfilm" Studiyası və Bakı Media Mərkəzi ötən ilin noyabrında "Şuşa, sən azadsan!" filmini ictimaiyyətə təqdim etdi, ekran işi böyük maraqla qarşılandı. Hazırda Qarabağ və Şuşanın tanınmış şəxsiyyətlərinə həsr edilən filmlər lentə alınmaqdadır. "Şuşa" qəzetinin redaktoru Vasif Quliyevin kitabı əsasında lentə alınan "Mehmandarovlar" (rejissor – Yavər Rzayev), ANAMA əməkdaşlarına həsr olunan "Mınaaxtaranlar", "Salnaməfilm" Studiyasında "Qarabağ" futbol klubu haqqında və Azərbaycanın böyük bəstəkarı Fikrət Əmirovun 100 illik yubileyinə həsr edilən sənədli filmlərin çəkilişləri Şuşada və Bakıda davam etdirilir.

Qeyd olundu ki, Dövlət Film Fondunda ümumilikdə Qarabağ və Şuşaya aid kadrların əks olunduğu 7 film bərpa edilib. 2021-ci ilin noyabrında Azərbaycan filmləri İstanbulda keçirilən I "Qorqud Ata" Türk Dünyası Beynəlxalq Film Festivalında təqdim olunub. Həmin festivalın gələcəkdə Türk dünyasının əsas kino tədbirinə çevrilməsi, bu proses çərçivəsində Türk Dünyası Kino Birliyinin yaradılması, həmçinin Türkiyə və Azərbaycan tərəfinin təklifinə əsasən, növbəti "Qorqud Ata" Türk Dünyası Beynəlxalq Film festivallarının türkdilli ölkələrin müxtəlif şəhərlərində, o cümlədən 2023-cü ildə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilməsi nəzərdə tutulur. Həmçinin Türkiyənin "Bozdağ Film" kino şirkəti ilə birlikdə şərti adı "Qarabağ Vətən müharibəsi" olan çoxseriyalı filmin layihəsi üzərində iş gedir.

Çıxışlardan sonra "Şuşa söhbətləri"nin qonaqları səhnəyə dəvət olundu. Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin əməkdaşı Leyla Sarabinin moderatorluğu ilə keçən paneldə Əməkdar incəsənət xadimi, professor, Dövlət Film Fondunun direktoru Cəmil Quliyev, Xalq artisti, kinorejissor Vaqif Mustafayev, Dövlət Film Fondunun şöbə müdiri Rəşad Qasımov, "Şuşa, sən azadsan!" filminin rejissoru Cavidan Şərifov Qarabağ və Şuşa mövzusunda kino sahəsində lentə alınan ekran əsərləri barədə düşüncələrini bölüşdülər.

Vaqif Mustafayev Qarabağ mövzusunda lentə aldığı filmlər haqqında danışarkən kadrarxası məqamlardan söz açdı. "Həyat, deyəsən, gözəldir" ("Fəryad-2") filminin çəkiliş prosesindən danışaraq ekran əsərinin noyabrda beynəlxalq festivalda təqdim ediləcəyini dedi. Rejissor Fikrət Əmirova həsr edilmiş sənədli filmin çəkilişləri zamanı Şuşada yaşadığı təəssüratları da bölüşdü.

Rəşad Qasımov "Şuşa İli" çərçivəsində Dövlət Film Fondunda qorunan Qarabağ və Şuşa haqqında filmlərin bərpasından danışdı. Bildirdi ki, bu məsələ "Şuşa İli" ilə əlaqədar Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Tədbirlər planında əksini tapıb. Bu xronikalarda ulu öndər Heydər Əliyevin 1982-ci ildə Şuşada Vaqif poeziya günündə çıxışı, Natəvanın büstünün açılışında iştirakı ilə bağlı kadrlar yer alıb. Tədbirlə planına uyğun olaraq, filmlər bu il Şuşada təşkil edilən mədəni tədbirlərdə nümayiş olunub. Eyni zamanda bu xronikalardan F.Əmirov haqqında və "Mehmandarovlar" filmlərində istifadə edilib.

Cavidan Şərifov çıxışı zamanı dedi ki, Vətən müharibəsi başlayan zaman Bakı Media Mərkəzi və "Salnaməfilm" Studiyasının rəhbərliyi tərəfindən bir qrup yaradıldı: "Biz ön cəbhəyə ezam olunduq və məqsədimiz maksimum dərəcədə döyüş zonasına yaxın olmaq, əsgər və zabitlərimizin igidliyi, şücaəti ilə bağlı arxiv kadrları çəkmək idi. Son getdiyimiz yer Şuşa oldu. Vətən müharibəsi bitdikdən sonra həmin kadrlar əsasında bir film ərsəyə gətirilməsi ideyası yarandı. Müasir hərb tarixinin ən parlaq səhifələrindən biri olan Şuşa əməliyyatının diqqətçəkən məqamları izləyicilərə ilk dəfə bu filmdə təqdim olunub. "Şuşa, sən azadsan!" filmi artıq beynəlxalq film festivallarında nümayiş olunur və bununla da Azərbaycanın haqq savaşındakı səsi bir daha dünyaya bəyan edilir".

Dövlət Film Fondunun direktoru Cəmil Quliyev Azərbaycanın kino salnaməsində Qarabağ mövzusunda lentə alınan filmlər və onların rejissorları haqqında söz açdı. Bildirdi ki, Qarabağ haqqında ilk ekran əsərini görkəmli rejissor Səməd Mərdanov lentə alıb. O, ilk dəfə 1933-cü ildə "Köçərilər" filmini çəkib. Əfsus ki, bu filmin lenti qalmayıb. Daha sonra isə "Kəndlilər" filmindəki (1939) bir neçə kadr Qarabağda lentə alınır. Mərhum rejissor Əbdül Həsənov Qarabağ mövzusunda vaxtilə silsilə filmlər çəkib. Rejissor 1937-ci ildə lentə aldığı "Qarabağ daşı", "Şuşa – kurort şəhəri" filmlərində Qarabağın mədəniyyəti, təbiəti haqqında dəyərli materiallar əks olunub. Görkəmli rejissor Hüseyn Seyidzadə "Koroğlu" filminin kadrlarını Əsgəran qalasında lentə alıb. Bu gün kino tarixində adı unudulmuş peşəkar operator, sonradan rejissorluqla da məşğul olan Əlibala Əsgərov 1967-ci ildə "Qarabağa səyahət" adlı sənədli film ekranlaşdırıb ki, həmin filmdə o zamanlar kinostudiyanın direktoru işləyən Xalq artisti Adil İsgəndərovun danılmaz əməyini qeyd etməliyik. Bu filmdə Qarabağın bütün bölgələrini, eləcə də Şuşaya səyahəti əks etdirən görüntülər var. Fond tərəfindən bərpa edilərək rəqəmsallaşdırılan filmlərin əksəriyyəti 1970-1980-ci illərdə lentə alınan ekran əsərləridir.

Panel çıxışlardan sonra tədbir sual-cavabla davam etdi, təkliflər dinlənildi.

"Mədəniyyət" qəzetinin baş redaktoru Vüqar Əliyev çıxışı zamanı Azərbaycan kino salnaməsində 1976-cı ildə lentə alınan "Dərviş Parisi partladır" filminin xüsusi yeri olduğunu dedi. Bildirdi ki, Qarabağ motivlərindən – Qarabağın əsrarəngiz təbiətindən, Qarabağ atlarından söz açılan bu filmin təbliğat baxımından böyük əhəmiyyəti var. M.F.Axundzadənin məşhur əsəri əsasında lentə alınan və fransalı alimin Qarabağa səyahətindən bəhs edən filmin fransız dilinə dublyaj edilərək Fransada yayımlanması Qarabağın Azərbaycanın əzəli torpağı kimi tanıdılması işinə töhfə da bilər.

Cəmil Quliyev bu təklifi dəstəkləyərək bildirdi ki, rejissorlar Kamil Rüstəmbəyov və Şamil Mahmudbəyovun quruluş verdiyi, məşhur sənətkarların çəkildiyi film Azərbaycan kinosunun ən dəyərli nümunələrindən biridir və onun xarici dillərə dublyajı və yayımı təqdirəlayiq addım olardı.

**Lalə**

## "Yuğ"da "Şəbədə" var

Dövlət Yuğ Teatrı yeni mövsümə premyera ilə başlayıb. Oktyabrın 2-də "Şəbədə" tamaşasının ilk nümayişi olub.



Mirzə Fətəli Axundzadənin "Mürafiə vəkillərinin hekayəti" pyesi əsasında hazırlanan səhnə əsərinin quruluşçu rejissoru Gümrah Ömər, quruluşçu rəssamı Umay Həsənova, rejissor assistenti Məryəm Qələndərlidir.

Janr baxımından "mərhəmətsizlik aktı" kimi təyin edilən "Şəbədə"də Xalq artisti Vidadi Həsənov, aktyorlar Oqtay Mehdiyev, Elgün Həmidov, Vüqar Hacıyev, Amid Qasımov, Ziya Ağa, Elçin Əmirov, Mətanət Abbas, Ləman Mərrih və Güneş Mehdizadə çıxış edirlər.

"Mənəviyyatın çözə bilmədiyini heç bir ədalət məhkəməsi çözə bilməz!" ideyalı səhnə işi xurafat və geriliyin bütün zaman və məkanlarda istənilən dəyərə zərbə olduğuna da işarə edir.

## "Ahıllar evi"nin sakinləri Akademik Musiqili Teatrın qonağı olublar

1 oktyabr – Beynəlxalq Ahıllar Günündə Mədəniyyət Nazirliyinin dəstəyi ilə Akademik Musiqili Teatrına dəvət olunan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin sakinləri "Ər və arvad" tamaşasına baxıblar.

Dahi bəstəkar Üzeyir Hacıbəylinin məşhur əsəri, Şərqin ilk operettası ahıllar tərəfindən rəğbətlə izlənilib.

Qeyd edək ki, Akademik Musiqili Teatrın səhnəsində 85-ci dəfə oynanılan bu tamaşada rolları Əməkdar artistlər Ələkbər Əliyev, Nahidə Orucova, aktyorlar Möylə Mirzəliyev, Rəsmiyyə Nurməmmədova, Telnaz Hüseynova, Elxan İsmayılov, Hüseyn Əlili, Fərid Rzayev, Ruslan Mürsəlov, Cəbrayıl Cəbrayılov və başqaları ifa ediblər.

Tamaşadan sonra ahıllara yaradıcı heyətlə səhnəarxası görüş üçün şərait yaradılıb.

## Xalq teatrlarının fəaliyyəti müzakirə edilib

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə xalq teatrlarının yeni əsasnaməsinin işlənməsi mövzusunda müşavirə keçirilib.

Sentyabrın 30-da paytaxtdakı İbrahim Əbilov adına Mədəniyyət Mərkəzində (Yasamal rayonu) təşkil olunan müşavirədə Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin əməkdaşları və baş idarənin rəisi İbrahim Əliyev mövzu ilə bağlı çıxış ediblər.

Müşavirədə xalq teatrlarının fəaliyyətindəki problemlərdən ətraflı söz açılıb. Xalq teatrlarının quruluş hissə müdirləri, rejissorlar, xalq kollektivləri və ansamblların rəhbərləri fikirlərini bölüşüblər. Fikir və təkliflər ətrafında müzakirələr aparılıb.

## Emin Sabitoğlunun xatirəsi musiqiləri ilə anılacaq



Oktyabrın 15-də Heydər Əliyev Sarayında unudulmaz mahnıların müəllifi, onlarla filmi bir çox televiziya və teatr tamaşalarını öz musiqiləri ilə insanlara daha da sevdirən görkəmli bəstəkar, Xalq artisti Emin Sabitoğlunun (1937-2000) 85 illiyinə həsr olunmuş konsert proqramı təqdim ediləcək.

Saraydan bildirilib ki, bəstəkarın populyar mahnılarının səslənəcəyi gecədə Xalq artistləri Flora Kərimova, Azər Zeynalov, Brilliant Dadaşova, Aygün Bayramova, Ənvər Sadıqov, Nəzakət Teymurova, İlqar Muradov, Gülyaz və Gülyanaq Məmmədovalar, Əməkdar artistlər Sevda Ələkbərzadə, Elton Hüseynəliyev, Lalə Məmmədova, Nuriyyə Hüseynova, müğənnilər Zabitə Alıyeva, Rəvanə Qurbanova, Dövlət Sərhəd Xidmətinin nümunəvi orkestrinin solisti Fəxri Kazım-Nicat və başqaları iştirak edəcəklər.

## "Ortaq mədəniyyət, ortaq miras"

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) muzey-sərgi kompleksində professor Minarə Quliyeva-Cəmşidinin "Ortaq mədəniyyət, ortaq miras" adlı fərdi sərgisi açılıb.



Sərgidə Azərbaycan və Türkiyənin ortaq mədəniyyət və mirasını əks etdirən ortaq mövzular seçilərək 30 ədəd keçə sənəti nümunəsi nümayiş olunur.

Tədbirdə Xalq rəssamı, ADRA-nın prorektoru, professor Fuad Salayev, akademiyanın Geyim və dizayn kafedrasının müdiri Nazim Yunusov, Azərbaycan Milli Kulinariya Assosiasiyasının rəhbəri Tahir Əmiraslanov çıxış edərək müəllifin yaradıcılığı, təqdim olunan əsərlər və keçə sənəti haqqında fikirlərini bölüşüblər.

Minarə Quliyeva-Cəmşidi bildirib ki, keçə sənətinə müraciət edərkən istifadə etdiyi simvollar qədim Göytürk yazılarıdır. O, bu sərgidə Azərbaycanın "Pazırıq" xalçasını, "Koroğlu" dastanının motivlərini, aşıq sənətini keçə üzərində əks etdirməyə çalışıb.

Müəllif sərgiyə toplaşanlara və onun bir rəssam kimi yetişməsində əməyi keçən müəllimlərinə təşəkkürünü bildirib.

# "Şəhidlər ölməzdir" adlı rəsm sərgi-müsabiqəsinə yekun vuruldu

Sentyabrın 30-da Xətai Sənət Mərkəzində "Sənətşünaslığın təbliği" İctimai Birliyinin təşəbbüsü ilə keçirilən "Şəhidlər ölməzdir" adlı rəsm sərgi-müsabiqəsinin qalibləri mükafatlandırıldı.



Tədbirdə əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, sonra Azərbaycanın Dövlət Himni səsləndirildi.

İctimai birliyin rəhbəri, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev tədbiri giriş sözü ilə açaraq qeyd etdi ki, rəssamlar tarixin aynasıdır. Onların yaratdıqları əsərlər isə tarixin şahididir. I və II Qarabağ müharibələrində Azərbaycanın minlərlə övladı Vətən uğrunda canını qurban verib. Rəssamlarımız onların bir çoxunun qəhrəmanlıqlarını tablolara köçürərək əbədiyaşarlıq qazandırıb. Bugünkü sərgidə rəsm əsərlərinin hamısı şəhidlərimizə həsr edilib. Müsabiqədə iştirak edən rəssamlar şəhidlərimizin əziz xatirəsini əsərlərində yaşatmağı özləri üçün fəxarət hesab edirlər.

Ziyadxan Əliyev çıxışında onu da qeyd etdi ki, qiymətləndirmə zamanı peşəkarlıq, əsərin təsir gücü və süjet tamlığı əsas götürülüb.

Tədbirdə daha sonra Xalq rəssamları Ağaəli İbrahimov, Arif Hüseynov, ilahiyyatçı-psixoloq Fazil Əhmədli və başqaları çıxış edərək sərgidə nümayiş olunan əsərlərə bağlı fikirlərini bölüşdülər. Bildirdilər ki, gənc rəssamlar mövzuya çox yaradıcı yanaşıb, Azərbaycan əsgər və zabitlərinin vətənsevərliyini və qəhrəmanlığını çox real cizgilərlə əks etdirə biliblər.

Çıxışlardan sonra Vətən torpaqlarının azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsinə həsr olunmuş rəsm müsabiqəsində iştirak edən rəssamlar təltif olundu. Bildirildi ki, müsabiqədə Xuday İbrahimov 1-ci, Firudin Quliyev 2-ci, Füzuli Şefiyev 3-cü yerə layiq görülüblər. 1, 2, 3-cü yerlərin qaliblərinə müvafiq olaraq 3000, 2000, 1000 manat və diplom, digər iştirakçılara təşəkkürnamə təqdim edildi.

**S.Fərəcov**

№73 (1946)
5 oktyabr 2022
www.medeniyyet.az

Şuşanın simaları

# Qala-şəhərin mədəni həyatının Xarratı



Şuşanın musiqi, sənət beşiyi kimi formalaşması və tanınması təkcə onun gözəl havası, şəfalı suyu, bir sözlə, füsunkar təbiəti ilə bağlı olmayıb. Bu ehtişamın şöhrət tacında ayrı-ayrı şəxslərin də payı var. Mədəniyyət paytaxtımızın sənət mühitindən söz düşəndə ilk yada düşənlərdən biri də Xarrat Quludur. O, bəstəkar, təbiət gözəlliklərindən ilham alaraq şeir yazan şair, bəstələdiyi mahnını özünəməxsus şəkildə oxuyan müğənni, zərif barmaqları ilə ağaclar üzərində naxışlar açan xarrat kimi tanınıb.

Xarrat Qulu Məhəmməd oğlu 1823-cü ildə Şuşa şəhərində dünyaya göz açıb. Atası Məhəmmədin aydın və güclü səsi olub, həm də Qarabağda xan sarayında nağara ifaçısı olaraq fəaliyyət göstərib. Rəsmi məclislərdə və el şənliklərində nağara çalıb. O, şəhərdə bir hadisə baş vermiş olsaydı, dərhal bazara gələr və ucadan car çəkib çağırış edərmiş. Mir Möhsün Nəvvab təzkirəsində yazır: "...Kərbəlayı Qulu xoş görünüşlü bir kişi idi. Farsca savadı var idi... Məşğuliyyəti dülgərlik idi. Axır vaxtlar şəbihgərdanlıq edirdi (dini dramlarda rejissorluq)".

Araşdırmalardan məlum olur ki, Kərbəlayı Qulu daha çox xarratlıq sənəti ilə məşğul olub. Çox mehriban və sözünə sadiqliyi ilə tanınıb. Şəhər əhli onu bir sənətkar kimi sevib, hörmətini saxlayıb. Sənətində məharəti olduğu kimi, musiqi elmindən də xəbərdar imiş. "Yusif" təxəllüsü ilə dini, həm də lirik, aşiqanə mövzuda şeir, həcv, mərsiyə və qəzəllər yazıb. Müasirləri ilə şeirləşməsi də məlumdur.

Musiqişünas, Əməkdar incəsənət xadimi Firudin Şuşinski araşdırmasında yazır ki, Xarrat Qulu XIX əsrin axırlarında Şuşada ilk dəfə musiqi məktəbi açır. Həmin məktəbdə 70-ə qədər sazəndə fəaliyyət göstərib. O, istedadlı gəncləri məktəbə cəlb edib, onlara muğamlarımızı oxumağın qaydalarını öyrədib. Həmin dövrdə məktəb dinə xidmət məqsədilə yaradılsa da, Azərbaycanda vokal və çalğı musiqisinin inkişafına böyük təsir göstərib. Xarrat Qulunun musiqi məktəbi bir sıra ustad sənətkarların yetişməsinə də təsir göstərib. Azərbaycanın görkəmli xanəndələri Hacı Hüsü, Məşədi İsi, Şahnaz Abbas, Dəli İsmayıl, Bülbülcan, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu və məşhur tarzən Sadıqcan Xarrat Qulunun yetirmələri hesab edilir.

Xanəndəlik sənəti ilə bərabər XIX əsrdə Şuşada ümumilikdə səhnə sənəti də inkişaf edib. Mənbələrdə deyilir ki, o dövrdə Şuşada məhərrəmlik mərasimi xüsusi hazırlıqla qeyd edilib. Bütün sənətkarlar, tacirlər öz emalatxana və dükanlarını bağlayaraq bu işə cəlb olunub. Dini tamaşaların hazırlanmasında Xarrat Qulunun özü və yetirmələri də yaxından iştirak edib. Zamanın çətin sınaqlarına baxmayaraq, bu təziyə ilə əlaqədar bir çox maraqlı hadisə və rəvayətlər də bu günümüzə qədər gəlib çatıb. Onu da diqqətə çatdıraq ki, əslində, şəbihgərdanlıq xanəndəliyin inkişafına müəyyən təsiri göstərib. O səhnələri həm də ilk teatr tamaşaları da adlandırmaq olar.

Xarrat Qulu həm də maraqlı şeirlər qələmə alıb. Mir Möhsün Nəvvabın təzkirələrində onun rübailəri, qəzəlləri günümüzə qədər gəlib çıxıb. Rübailərinin birində deyilir:

*Hər nakəsə veribdi Xuda pulun ağını,*
*Ancaq rəva görübdü bizə qəm qalağını.*
*Küfr olmasa, bu qismətə mən bəhs eylərəm,*
*Çün bilməyibdi xəlqə qismət səyağını.*

Şuşanın mədəni həyatında aktiv rol oynamış Xarrat Qulu 1883-cü ildə, 60 yaşında vəfat edib, şəhər qəbiristanlığında dəfn olunub.

**Savalan Fərəcov**

# Yaddaşımıza köçən Xəyyam müəllim

Bəstəkar Xəyyam Mirzəzadəyə telefon açan hər kəsin eşitdiyi ilk söz "...Mirzəzadə" idi. Həmin jestdə bir rəsmiyyətlik duyulsa da, onu yaxından tanıyanlar belə ünsiyyət üslubunun bəstəkara xas duzlu yumor cizgili olduğunu yaxşı bilirdilər. Buna daha bir səbəb Xəyyam müəllimin "gülüş paytaxtı" Şəki ilə bağlılıqdan doğan genetik yaddaşın təzahürüdür.



### Ötənlərin yaddaşı

Xəyyam müəllimin incə zövqə malik qəlbi vardı. Bunu təbii olaraq, bəstəkarın musiqisinə xas həssas çaları lirikasından sezmək olar. Məsələn, Oqtay Ağayevin bənzərsiz ifasında "Yadındamı" mahnısının nostalji lirikası indi də retro musiqi həvəskarlarını laqeyd qoymur.

Mahnının yaranması Xəyyam müəllimin bu janrda ilk təcrübələrindən biridir. Bəstəkarın atası, görkəmli dilçi alim Hadı Mirzəzadə bir gün oğluna poetik addımlarını atan gənc şair Bəxtiyar Vahabzadənin "Çeyran" adlı ilk kitabını verir. Məhz həmin şeirlərdən birindən "Yadındamı" adlı mahnı yaranır.

Həssas dinləyicilər sözügedən mahnının Bethovenin "Aylı sonata"sının I hissəsinin müşayiəti arasında oxşarlıq çizgiləri olduğunu yəqin hiss ediblər. Çox güman ki, Xəyyam müəllim Vyana klassikinin dünyaca məşhur bəstəsində hökm sürən kədərli motivin şeirin fəlsəfi yükündəki fikirlə ümumi cəhətlərini duyduğu üçün müvafiq ifadə vasitəsini seçib.

Bəstəkarın mahnı yaradıcılığındakı mətnlərdə sanki insanın həyat anlarına təbiətin şahidliyi ilə bağlılıq əsas mövqe tutub. Haqqında danışdığımız "Yadındamı" mahnısındakı misralara diqqət yetirək:

*Yadındamı ötən günlər,*
*Ağac altı… bulaq səsi,*
*Günlər keçir… bizə qalır,*
*O günlərin xatirəsi...*

Yaxud Nəriman Həsənzadənin sözlərinə yazdığı "Yaşıl söyüd"ün nostalji əhvallı:

*O burdan gedəli*
*Mən bura gəlmirəm, gəlmirəm…*
*Soruşma, niyə bəs.*
*Bilmirəm, bilmirəm, bilmirəm…*
*Ay, yaşıl söyüd…*

misralarının məna yükündə, eləcə də bəstəkarın həzin musiqilər yazdığı Anarın "Qayalar", Nəbi Xəzrinin "Bir səhər" şeirlərində qeyd elədiyim fikirlər sezilir.

Nəriman müəllim xatırlayır: "Xəyyam Mirzəzadə kimi mürəkkəb dramaturji simfonik yaradıcılığa üstünlük verən sənətkarlar mahnı janrına ara-sıra müraciət edirlər. Estrada musiqisi kimi kütləvi janrında hər müəllifin yaratdığı mahnının həyata vəsiqəsi uzunömürlü olmur. Lakin X.Mirzəzadənin düzgün yaradıcı mövqeyi yaratdığı bu səpkili nəğmələrin indi də gündəmdə olmasını şərtləndirir.

Şadam ki, belə qüdrətli sənətkarla yaradıcı ünsiyyət mənə də nəsib olub. 70-ci illərin ortalarında Xəyyam müəllim yeni mahnı üçün şeirlərimi xahiş elədi. Mən təzəlikcə çapdan çıxan kitabımı ona hədiyyə göndərdim. "Yaşıl söyüd" mahnısının yaranışı belə oldu...".

### Kino musiqisi dramaturqu

Hamıya bəllidir ki, bədii filmin bir çox məna çalarlarını duymaq və musiqi vasitəsilə ümumi dramaturji xəttin tamlığına nail olmaq bəstəkardan çevik yaradıcı təfəkkür tələb edir. Bu baxımdan Qara Qarayev kino musiqisini bəstəkar üçün gözəl treninq adlandırırdı.



Azərbaycan Dövlət Konservatoriyasında Qara Qarayevin sinfi, 1977.
X.Mirzəzadə, N.Şəfiyeva, R.Bədəlov, L.Vaynşteyn, P.Bülbüloğlu

### 60-cılar çağırışçısı...

Xəyyam müəllim Qara Qarayevin tələbəsi olduğu üçün həmişə fəxr edərdi. Hər iki şəxsiyyət arasında ünsiyyət pedaqoq-tələbə çərçivəsindən çıxaraq əqidə həmrəyliyi, həmkar birliyinə çevrilmişdi. Milli musiqi tariximizin müasirlik sərkərdəsi hesab edilən Qara Qarayevin ən çağdaş estetik dəyərlərin carçılarından biri də Xəyyam Mirzəzadə idi. Onun "Oçerklər-63" simfonik poemasının ilk ifası Bəstəkarlar İttifaqında müzakirəyə çıxarılarkən ikili mövqe ilə qarşılanmışdı. Həmin əsərin daxilindəki çoxlaylı məzmunun əsas qayəsində yeni estetik tendensiyalara bir çağırış nidası vardı. Bəstəkar Fərəc Qarayev çıxışlarının birində müəllifin yaratdığı bəstənin tutarlı, dolğun faktlara əsaslanan inamlı müdafiəsini xüsusi vurğulayır.

Xəyyam Mirzəzadənin bu sahəyə ilk gəlişi 1961-ci ildə rejissor Əlisəttar Atakişiyevin "Bizim küçə" filmi ilə bağlıdır. Həmin illərdə bəstəkarlıq kafedrasının buraxılış imtahanları filarmoniyada, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında keçirilirdi. Həmin tədbirə musiqi ictimaiyyətinin nümayəndələri ilə yanaşı, teatrların, kinostudiyanın rejissorları, musiqi redaktorları dəvət olunardı. Başqa sözlə, müstəqil yaradıcı həyata başlamaq istəyən bəstəkarlar ictimaiyyətlə ilk tanışlığı baş verirdi.

Xəyyam müəllimlə söhbətlərimizin birində bu barədə demişdi: "Milli kinomuzun azman rejissorlarından biri Əlisəttar müəllim mənə – gənc, mövcud sahədə təcrübəsi olmayan bəstəkara – əməkdaşlıq təklifi gözlənilməz oldu. Adətən belə qisim sənətkarlar bərkə-boşa düşərək püxtələşmiş mütəxəssislərlə işləməyi xoşlayırlar. Amma Əlisəttar müəllim mənim diplom işimin səslənməsində iştirak elədiyini, haqqımda müsbət təəssüratla yadda qaldığımı bildirəndə çəkilən etimaddan məmnun oldum...".

Xəyyam müəllimin bəstəkarı olduğu filmlərə baxarkən ilk anda musiqi və kadrların xronometraj sinxronluğu, dəqiqliyi diqqəti cəlb edir.

Rejissor Tofiq Tağızadənin "Yeddi oğul istərəm" filmində Cəlalın "qan çanağı"nda ölüm səhnəsi filmin ən dramatik anlarından biridir. Tamaşaçılar kadrlarda hökm sürən əhval-ruhiyyəni aşıq Ədalətin ifasında "Yanıq Kərəmi" havası fonunda operatorun simalara yönələn kamerasında həkk olan ifadədən hiss edirlər. Ən sonda Gəray bəy tərəfindən Cəlalın öldürülməsi anında bəstəkar orkestrin dissonans qatışıqlı müdaxiləsini daxil etməklə faciənin bütün dramatik çəkisinin kulminasiyasını qabardır.

### Epiloq əvəzi

Oktyabrın 5-i Xəyyam müəllimin ad günüdür. "Əvəzolunmaz insan yoxdur" kimi bir ifadə var. Bu fikrin kim tərəfindən səsləndiyini bilməsəm də, kiçik bir düzəliş etmək istərdim: "Əvəzolunmaz insan çoxdur". Son illərdə milli mədəniyyətimizdə baş verən itkilər sırasının genişlənməsi ilə yaranan boşluğun dərinləşməsi bunu deməyə əsas verir.

Hər insanın, xüsusilə yaradıcı fərdin yaşamı zamanı ətrafında bir kiçik dünya yaranır. Həyatı boyu təsadüf və zərurətdən doğan yeni ünsiyyətin səbəbilə həmin dünyanın sərhədləri genişlənir, onunla təmasda olmaq şərəfinə nail olanları öz hərarəti ilə isindirir. Əbədiyyətə qovuşandan sonra həmin şəxsiyyətlərlə keçirilən günlərdən qalan xatirələr onu sevənlərin qəlbinə köçür. Böyük şair Məhəmmədhüseyn Şəhriyarın belə misraları var:

*...Bir insan köçürsə*
*dünyadan əgər,*
*Sən elə bilmə ki, tək bir can gedir.*
*Hər sönən baxışda saysız diləklər,*
*Hər kiçik tabutda bir cahan gedir.*

*O gedir... Qalırıq biz yana-yana,*
*Bu dərdi ürəkdə daşımaq çətin.*
*Hər gün yer üstündən yerin altına*
*Köçür bir parçası bəşəriyyətin...*

Nura qərq olan yeni dünyanda ad günün mübarək, əziz Ustad!

**Yavər Neymətli**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# "Natəvanı mənə nənəm, babam sevdirmişdi..."

Bu il görkəmli şairə və ictimai xadim Xurşidbanu Natəvanın (1832-1897) anadan olmasının 190 illiyidir. Şairənin yubileyi ilə bağlı ölkəmizdə bir sıra layihələr həyata keçirilir, yeni kitablar işıq üzü görür. Folklorşünas alim, filologiya üzrə fəlsəfə doktoru Fəridə Hicran da Natəvan yaradıcılığına işıq tutan qələm sahiblərindəndir.



Fəridə Hicran (Fəridə Talıb qızı Vəliyeva) 1960-cı ildə Ağdam rayonunun Seyidli kəndində anadan olub. "Qarabağda talan var" (1992) kitabının müəllifi olan yazıçı və ədəbiyyatşünasın 30-dan çox əsəri, 200-dən çox elmi məqaləsi işıq üzü görüb. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Hazırda AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsinin böyük elmi işçisi vəzifəsində çalışır. Onunla müsahibəni təqdim edirik.

*– Bu il adı Qarabağla, Şuşa ilə qoşa çəkilən Natəvanın 190 illiyidir. Ölkə başçısı bu münasibətlə sərəncam imzalayıb...*

– Bəli, 2022-ci il Xan qızı və onun doğma yurdu Şuşa ilə bağlı əlamətdardır. Çalışıram ki, mənim də bu əlamətdar ilə bir töhfəm olsun. Dövlət başçısının sərəncamından sonra görkəmli şairə haqqında yazdığım "Xan qızı Natəvan" poemasını ingilis dilinə tərcümə etdirdim. Bu poemanı mən Natəvanın 170 illiyi münasibətilə yazmışdım. Poema artıq Albaniyanın "Galaktika Poetike Atunis" portalında ingilis dilində yayımlanıb. Əsəri ingilis dilinə Məsmə İsmayılova tərcümə edib.

Bundan başqa, şairənin 190 illiyi ilə bağlı "Xan qızı Natəvan" pyesini qələmə aldım. Bu ilin martında Beynəlxalq Qadınlar Günü münasibətilə Niderland Krallığının Haaqa şəhərində Avrasiya Fondunun dəstəyilə "Natəvanın izi ilə" layihəsi reallaşdırıldı. Layihə çərçivəsində şəhərin "An Hat Spui" teatrında mənim bu pyesimin Niderland dilində tamaşası nümayiş olundu. Quruluşu Fatma Aktaşa məxsus olan tamaşanın səhnələşdirəni Hina Merckendir. Poetik mətnləri isə Erna van Den Berq tərcümə edib.

*– Bir qədər də poema haqqında danışardınız.*

– "Xan qızı Natəvan" poemasında şairə haqqında, demək olar ki, əksər məqamlara toxunulub. Poemada Natəvanın Aleksandr Düma (ata) ilə görüşünü də təsvir etmişəm:

*Bir toplu bəzərmiş onun rəfini,*
*Cildində müxtəlif çalarlı sapla,*
*Yarada bilmişdir öz hədəfini.*
*İncə bir sənət tək bu gözəl əsər,*
*Saxlanır muzeydə, getməmiş hədər.*
*Hətta məşhur Düma səfər zamanı,*
*Qafqazda görərkən gənc Natəvanı,*
*Onun əl işinə heyran qalaraq,*
*Bir neçə nümunə ondan alaraq*
*Gizlədə bilməmiş təəccübünü...*

Poemanın əsas özəlliklərindən biri odur ki, əsərdə Natəvanın bütün nəsli haqqında məlumat vermişəm. Hətta poemada Natəvan haqqında elmə məlum olmayan bəzi məlumatlar da yer alıb. Bu məlumatların bir hissəsi Ağdam rayonunun Seyidli kəndindəki qocaman baba, nənələrimizdən, bir qismi isə arxivdən götürülüb. Qeyd edim ki, arxivdə materiallar olduqca azdır, bəziləri isə yanlışdır. Mənim özüm də Natəvanın nəslindən olduğum üçün Xan qızı haqqında maraqlı məlumatlarım var. Bu poemanı və eyniadlı pyesi yazmaqda əsas məqsədim Natəvanın qarabağlı, şuşalı, Azərbaycanın əzəli yurd yerlərindən olduğunu beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdır.

Təsəvvür edin, Hollandiyada Natəvanı çox az adam tanıyır. Biz onun haqqında danışanda ətrafımıza xeyli insan yığıldı. Hətta orada yaşayan türklərin də Natəvan haqqında məlumatları az idi. Mən bu barədə məlumat verəndən sonra hər kəs onun haqqında maraqlanmağa başladı. Onu da deyim ki, poema Almaniyada alman dilində də nəşr olunacaq.

*– Natəvan yaradıcılığına maraq necə yarandı?*

– Natəvanı uşaq yaşlarımdan nənəm, babam mənə sevdirmişdi. Hətta bizim evimizdə Natəvanın bir neçə əşyası da var idi... Biz Mehdiqulu xan Vəfanın kötücəsi olan Çərkəz bəy Şərifovun nəvələriyik. Nəslin ən gənc nümayəndəsi isə Mehdiqulu xan Vəfa qolundan olan Ayxan Cavanşirlidir.

*– Bu əşyaların sonrakı aqibəti necə oldu?*

– Xurşidbanu Natəvan anamın nənəsi Mənzər xanıma vaxtilə bir çıraq və qızılı saplarla öz əl işi olan canamaz (namaz qılmaq üçün yerə sərilən parça) bağışlamışdı. Həmin əşyalar Ağdamın işğalından əvvəl İmarət kompleksində Natəvana həsr olunan guşəyə qoyulmuşdu. Ağdam azad edildikdən sonra oranı ziyarət etdim. Çox təəssüf ki, 30 ilə yaxın sürən işğal dövründə ermənilər bu kompleksi də talan ediblər.

*– Natəvanın poeziyası klassik Azərbaycan ədəbiyyatında hansı mövqeyə malikdir?*

– Məncə, Natəvan poeziyası ədəbiyyatımızda hələ öz yerini tutmayıb. Onun yaradıcılığı haqqında deyiləcək çox söz var. Çünki şairənin yazıb-yaratdığı vaxt Qarabağda, Şuşada poeziyanın çiçəklənən dövrü idi. Ona görə də düşünürəm ki, Natəvan poeziyası dövrünün ən böyük poeziyası hesab olunmalıdır.

*– "Natəvan" sözünün mənası zəif, gücsüz deməkdir. Əslində, güclü qadın olan, çoxlarına çarə edən Xan qızının bu təxəllüsü götürməyinin səbəbi nə idi?*

– İlk olaraq qeyd edim ki, Natəvan öz müdrikliyi, şair təbiəti, daha çox isə xeyriyyəçiliyi ilə seçilir. Onu xeyriyyəçi və vətənpərvər olduğu üçün daha çox sevirlər. Bir yurdun qədrini yalnız onu qurub-yaradanlar daha yaxşı bilər. Bunu bir fakt olaraq artıq erməni təcavüzkarları da ortaya qoydu. Onların 30 ilə yaxın əsarətdə saxladıqları yurdu necə viran etdiklərinin şahidi olduq. İnsan öz Vətəninə necə qıyıb yerlə yeksan edə bilər?! Deməli, ermənilər özləri bilirdilər ki, Qarabağ Azərbaycana məxsusdur.

O ki qaldı təxəllüs məsələsinə. Bu barədə mən öz poemamda məlumat vermişəm. İstəyirsiniz elə sualınıza da poemadan bir parça ilə cavab verim:

*Natəvan yaradıb qurduqca hər an,*
*Ona ləkə vurmaq istərdi nadan.*
*Odur ki, qaçmaqçün bu söz-söhbətdən,*
*Nikahın bağladı bir rəiyyətlə,*
*Arzuladı təmiz, sadə bir ailə.*
*Ağamirov Seyid Hüseyn oğlu,*
*Onunla başladı bir ömür yolu.*
*İki qız, üç oğul anası oldu...*
*Yenə də bu həyat ona gülmədi,*
*Zamanın nəbzini tuta bilmədi.*
*Ənənəni pozmaq əzabı oldu,*
*Hakim siniflərin qəzəbi doldu.*
*Arxada fəlakət gözlədi onu,*
*Bir oğul ölümü izlədi onu.*
*On altı yaşında Mir Abbasını,*
*Dəfn edib itirdi gənc dünyasını.*
*O, qəmə köklədi öz rübabını,*
*Yaşadı dövrünün son əzabını...*

*– Natəvan irsinin xarici ölkələrdə tanıdılması üçün nələr etmək lazımdır?*

– Natəvanın həyat və yaradıcılığını şeirlərdə, poemalarda, komediyalarda əks etdirib tanıtmaq lazımdır. Mirzə Fətəli Axundzadənin belə fikri var: "İnsanlar o qədər avam idilər ki, əgər adi bir dram yazsaydım, heç kim ona baxmazdı. Mən ona görə də altı böyük komediya yazdım ki, insanlar gəlib baxsın". Doğrudur, indiki zamanda insanların intellektual səviyyəsi çox inkişaf edib. Ancaq yenə də insanları cəlb etmək üçün maraqlı tamaşalar, qısa sözlərlə böyük fikirləri ifadə edə bilən əsərlər yazılmalıdır.

*– Yubiley ilində hansısa başqa layihələriniz olacaqmı?*

– Hazırda Natəvan haqqında sənədli film çəkilir. Filmin yekunlaşdırılması üçün cəmi iki çəkilişimiz qalıb. Çəkilişlər Şuşada, Ağdamda aparılıb. Filmin son çəkilişlərindən biri yenidən Şuşada olacaq. Sənədli filmdə Natəvan rolunu Xan qızının nəslindən olan tanınmış modelyer Fəxriyyə Xələfova canlandırır. Fəxriyyə xanıma Şahbulaq qalasının maketi hədiyyə edilmişdi. O da həmin maketi turistlərin görməsi üçün qalaya gətirmişdi. Ağdamın işğalından qabaq Şahbulaq qalasının üzərində İslam dininin simvolu olan günbəz var idi. Qalada olarkən Fəxriyyə xanım söylədi ki, maketdə təsvir olunan günbəz qalada yoxdur. Aydın oldu ki, ermənilər həmin günbəzi də götürüblər.

Bundan başqa, bu il iki kitab üzərində işləyirəm. Bu kitablardan birinin adı "Dünya beşdən böyükdür" adlanır. İkinci kitabım isə Xan qızına həsr olunub. Kitabda Natəvanla bağlı tədqiqatlara daha çox yer verilib. Əslində, kitab hazır idi. Lakin 44 günlük Vətən müharibəsində qazanılan Qələbədən sonra bəzi mühüm faktları əlavə etməyi özümə borc bildim.

**Söhbətləşdi:**
**Nurəddin Məmmədli**

# Zəhmətlə ucalanlar...

1970-ci illərin pambıq yığımı mövsümlərinin birində Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru maestro Niyazi rəhbərlik etdiyi kollektivlə birlikdə respublikamızın rayonlarına səfəri zamanı magistral avtomobil yolunun kənarındakı pambıq sahəsində pambıqyığan gənc qızları görür. Dahi musiqiçi yolboyu bu mənzərəni çox maraqla seyr edərək maşını saxladır. Maestro günəşli, təndir kimi isti qızmar havada "ağ qızıl" toplayanların zəhmətinə böyük qiymət kimi musiqi kollektivinin üzvlərinə məhz burada, açıq səma altında konsert verməyi məsləhət görür. Orkestrin ifasında Azərbaycan bəstəkarlarına məxsus əsərlərin burada səslənməsi böyük dirijorun zəhmətkeş insanlara olan hədsiz məhəbbəti və hörmətinin bariz nümunəsi idi.



SSRİ Ali Sovetinin Azərbaycandan olan deputatları (1974).
Mətanət Məmmədova ikinci sırada soldan 7-ci

Əlbəttə, bu elə bir vaxta təsadüf edirdi ki, həmin illərdə respublikamızın ictimai-siyasi, mədəni-iqtisadi həyatında böyük inkişaf mərhələsi başlamışdı. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyevin rəhbərliyi ilə respublikada digər istehsal sahələri ilə yanaşı, aqrar sahənin, o cümlədən pambıqçılığın inkişafı ildən-ilə genişlənirdi. Haqqında söhbət açacağımız qəhrəmanımız da əmək cəbhəsinə məhz həmin vaxtlarda qədəm qoymuşdu...

Mətanət Səfər qızı Məmmədova 1951-ci il oktyabrın 20-də Əli Bayramlı rayonunun (indiki Şirvan şəhəri) Dadaşbəyli kəndində fəhlə ailəsində dünyaya göz açıb. 1966-cı ildə kənddə 8 illik məktəbi başa vurduqdan sonra Sabirabad rayonunun "Kommunizm" kolxozunda əmək fəaliyyətinə başlayıb. Tezliklə çalışqanlığı sayəsində sıravi pambıqçıdan kolxozdakı 7 nömrəli pambıqçılıq briqadasının briqadiri vəzifəsinədək yüksəlir. 1970-ci ildə SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən kənd təsərrüfatı sahəsində yüksək nailiyyətlərə və V.İ.Leninin 100 illiyi münasibətilə ona yubiley medalı təqdim olunur.

1973-cü il dekabrın 21-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Mətanət Məmmədova "Şərəf nişanı" ordeni ilə, 1973-cü il iyulun 23-də SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalına layiq görülür.

1974-cü ildə Sabirabad seçki dairəsindən 9-cu çağırış SSRİ Ali Sovetinə deputat seçilir. 1975-ci ildə respublika üzrə "Sosializm yarışının qalibi" döş nişanı, 1976-cı ildə Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı tərəfindən "Ən yaxşı gənc pambıqçı" döş nişanı, 1978-ci ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl medalı ilə təltif edilir. 1979-cu ildə pambıqçılıq sahəsində yüksək əmək nailiyyətləri əldə etdiyinə görə SSRİ Kənd Təsərrüfatı Nazirliyi, SSRİ Kənd Təsərrüfatı Nailiyyətləri Sərgisinin Baş Komitəsi və Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı tərəfindən "Lenin komsomolu mükafatı"na, 1980-ci ildə yenidən "Sosializm yarışının qalibi" döş nişanına layiq görülür.

Gənc pambıqçı eyni zamanda təhsilini də artırır. 1981-ci ildə Gəncə şəhərindəki S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu (Azərbaycan Dövlət Aqrar Universiteti indiki Aqrar Universitet) aqronomluq ixtisası üzrə başa vurur.

Bütün həyatı boyu zəhmətlə yaşamış Mətanət Məmmədova müstəqillik illərində də rayon rəhbərliyinin diqqətindən kənarda qalmayıb. "Kənd təsərrüfatı işçiləri günü" münasibətilə Sabirabad Rayon İcra Hakimiyyəti tərəfindən fəxri fərmana layiq görülüb. Hazırda təqaüdçü olan təcrübəli kənd təsərrüfatı mütəxəssisi ulu öndər Heydər Əliyevin vaxtilə Sabirabad rayonunda zəhmətkeşlərlə etdiyi söhbətləri hər zaman həvəslə xatırlayır. Keçdiyi həyat və zəhmət yolu isə nəsillərə örnəkdir...

**M.Əbilov**
**Sabirabad rayon Mədəniyyət Mərkəzi Güdəcühür kənd Folklor evinin direktoru**

# İçərişəhərdə Qala divarlarında çəkilən qraffitilər silinib

İçərişəhərdə Qala divarlarında qanunsuz olaraq çəkilən qraffitilər tamamilə silinib.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən bildirilib ki, monitorinq nəticəsində qoruq ərazisində 70-dən çox "yazı" və qraffiti aşkarlanıb.

Son bir il ərzində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi dəfələrlə vandalizm aktları ilə qarşılaşıb. Bir müddət əvvəl ictimaiyyətə dünya əhəmiyyətli abidə olan Qala divarlarına qarşı vandalizm aktı barədə məlumat verilmişdi. Tarixi tikilini zədələyən şəxslər vaxtında müəyyən edilib və barələrində qanuni tədbirlər görülüb.

Qala divarında vandalizm izlərinin aradan qaldırılması istiqamətində aparılan bərpa işləri ötən həftə başa çatdırılıb. İş beynəlxalq təcrübəyə malik mütəxəssislərin nəzarəti altında yerli heyət tərəfindən həyata keçirilib.

# "Su və rəng ahəngi – 2022" akvarel sərgisi keçiriləcək

"IWS Azerbaijan" və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə "Su və rəng ahəngi – 2022" adlı növbəti illik akvarel sərgisi təşkil olunacaq.

Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı və Azərbaycan Dövlət Rəsm Qalereyasının dəstəyi ilə reallaşacaq sərgiyə 18 yaşdan yuxarı hər rəssam 1-2 əsər göndərə bilər.

Əsərlər ölkəmizin mədəniyyəti, ənənələri, tarixi abidələri və mənzərələrini əhatə edən mövzularda olmalıdır. Plakat və kollajlar qəbul edilmir.

Akvarel işlərin fotoları iwsazerbaijan@gmail.com elektron ünvanına göndərilməlidir.

Son müraciət tarixi 10 noyabrdır. Jüri heyəti tərəfindən seçilmiş iştirakçıların siyahısı noyabrın 14-də elan ediləcək.




Sərgi Xətai Sənət Mərkəzində təşkil olunacaq.

# Kitab, kökə, kəhrəba arasında...

## Milli Kitab Sərgisindən təəssürat



Görülən işi heç vaxt gözdən salmaram. Əksinə, bəzəkli-düzəkli edib, yaxşı ənənənin yaranması üçün sevinərəm. Xüsusilə bu əməl kütləvi maariflənmə, bilik və intellektin, zövq və dünyagörüşünün artmasına hesablanıbsa...

Bu oxucu-izləyici təqdirimi qazanan və hər dəfə ziyarət etdiyim tədbirlərdən biri – Milli Kitab Sərgisinin dördüncüsü bu günlərdə, 27 sentyabr – 1 oktyabr tarixlərində gerçəkləşdi.

"Qanun" Nəşrlər Evinin təşkilatçılığı ilə Bakı İdman Sarayında keçirilən sərgiyə iki dəfə (29 sentyabr, 1 oktyabr) baş çəkdim. İlk gedişimdə izləyici-alıcıdan çox satıcının olması məni xeyli bədgüman etsə də, sərginin son günü məkanda qələbəlik idi, hətta bəzi stendlər önündə sıxlıq vardı. Hərçənd ilk gedişimdə "Müasir Azərbaycan hekayəsi" kimi maraqlı mövzu ətrafında müzakirənin dinləyiciləri də elə haqlarında danışılan yazarlar idi.



Bütün hallarda kitab ənənəsini yaratmaq və kütləvi oxucu ilə kitabın sıx təmasını təminat üçün düşünülən tədbir baş tutdu. Yazı başlığına çıxardığım nəsnələr arasında kitab ağır gəlməsə belə, ən azı alıcı, ziyarətçi, kitabçı, hətta kolleksiyaçılar hər vəchlə kitabı xilas etməyə çalışdılar.

Tədbirin təşkilatçısı – "Qanun" Nəşrlər Evinin direktoru Şahbaz Xuduoğlu ilə ayaqüstü söhbətdə də bu məqamları soruşdum. Məsələn, sərgiyə nə qədər nəşriyyat müəssisəsi, kitab satışı və yayımı ilə məşğul olan mağaza qoşulub.

Həmsöhbətim bildirdi ki, təqribən 30 nəşriyyat və kitabçı var, həmçinin 60-dan çox iştirakçı müxtəlif əl işləri, suvenirlər və s. təqdim edir. "Yəni kimin satmağa kitabı var – gətiriblər" cavabında ilkin təəssüratımda yanılmadığıma əmin oldum. Kitab sərgisinə 60 iştirakçının qeyri-sahədən məhsul çıxarması, sadəcə, satmaq həvəsidir...

Sərgi təşkilatçısına bir müşahidə-qənaətimi də dedim: sərgidə bədii əsərlərlə dərs vəsaitləri sanki yarışdadır. Şahbaz Xuduoğlu bunu təsdiq etdi və bildirdi ki, hər nəşriyyat öz istehsalı ilə təmsil olunur və onlara meyar təyin olunmayıb. Bəli, stendlərdə müxtəlif yayın evləri və tədris müəssisələrinin test blokları xüsusilə nəzərə çarpırdı.

Bir sözlə, hər nəşriyyat öz auditoriyasına görə kitablar çıxarmışdı və onların satışına can atırdılar. Bunun üçün müəyyən endirimlər də edirdilər. Uşaq ədəbiyyatı və yayın evlərinin xaricdən gətirdikləri əsasən rus dilində olan illüstrasiyalı nəşrləri çıxmaq şərtilə, orta alıcılıq qabiliyyətinə cavab verən nümunələr kifayət qədər idi.

Bir qisim nəşriyyatlar yalnız son iki ilin kitablarına üstünlük verdiklərindən qiymətləri də kifayət qədər "əlyandıran" idi. Bu stendlər qarşısında seyrəklik idi. Digər bir neçə nəşriyyat isə bazarını endirim aksiyasına (daha çox 1 manata və birini alana biri hədiyyə) ümidli təyin etmişdi.

Şahbaz Xuduoğlu tədbirin ümumi formatına da diqqət çəkdi: "Burada yalnız kitab sərgisi deyil. Biz az qala hər saatdan bir müxtəlif panellərdə müzakirələr, görüşlər edirik. Gənc şairlər, yazarlar, ifaçılar tədbirə rəng qatmağa, özlərini ifadə etməyə çalışırlar. Əsas odur ki, bütün mövzuların ortasında kitab var...".

Təşkilatçının təbirincə desək, bəli, bütün mövzuların ortasında kitab var. Amma bəzi məqamlarda kitaba çatmaq üçün maneə də. Məsələn, sərgi ərazisinin əsas nəzərəçarpacaq hissələrinə hakim kitabdan çox bəzək-düzək əşyaları, əl işləri, müxtəlif yaradıcılıq istiqamətləri üzrə nümunələr idi. Sıralanmış əl işləri arasında – stenddən stendə muncuqdan çantaların, ağacdan oymaların, balıqqulağından boyunbağıların, şüşədən şəkillərin, çinidən gül və kül qablarının, növbənöv şirniyyatların, üstü yazı-pozulu köynəklərin, çantaların, fərqli texnikalarda şəkillərin və s. fonunda kitab bir az miskin görünürdü.

Təşkilatçıdan sərgiyə maraqla bağlı fikirlərini də öyrəndim. Onun müşahidəsinə görə, maraq artır: "Başqa sərgilər də var və hamımızın ümumi istəyi kitaba marağı artırmaqdır. Təbii ki, ticarət ondan sonra gəlir. İnsanın bir nəsnəyə marağı varsa, mütləq o tələbini təmin etməyə çalışacaq. Bu mənada kitab gərək daim gündəmdə, göz önündə olsun. O zaman maraq artır. Bu mənada sevinirəm ki, tendensiyanı artan xətt üzrə görürəm. Alıcılıq qabiliyyətinə gəlincə, narazı deyilik...".

Sevindirici haldır ki, alıcılar nəsil etibarilə daha çox gənclər idi. Özü də o gənclər ixtisas sahələrindən daha çox bədii əsərlərə, fəlsəfə və psixologiya ilə bağlı kitablara üstünlük verirdilər. Aralarında məşhur "Zəngin olmağın qızıl qaydaları" ilə bağlı populyar nəşrlərə ümidlənənlər də az deyildi.

Bütün hallarda kitab üzərində əlavə gəlir vergisinin aradan qaldırılması və digər müəyyən güzəştlərin tətbiqinə rəğmən kitabların qiyməti orta alıcılıq qabiliyyətinə münasib deyildi. Düşünürəm ki, kitab istehsalı və onun ticarəti ilə məşğul olanlar alıcı bazarını öyrənməklə yanaşı, onun dövriyyəsini də müşahidə edib işlək mexanizmi təqdim etməlidirlər. Əks halda bu gün çapdan çıxıb, bazara nisbətən baha qiymətə təqdim edilən kitab çox yox, elə növbəti sərgidə endirim səbəbində 1 manata təklif olunacaq...

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 5-7 oktyabr

### Azərbaycan

**5 oktyabr 1918** – Xalq artisti Qalina Borisovna Koltunova (1918-1994) Bakıda doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası (1943-cü ildən) olub.

**5 oktyabr 1928** – Tanınmış ədəbiyyatşünas alim, yazıçı Məsud Əlioğlu (Vəliyev; 1928-1973) Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.

**5 oktyabr 1928** – Azərbaycan SSR Xalq Maarif Komissarlığının qərarına əsasən, Bakı Fəhlə Uşaq Teatrının rus bölməsi yaradılıb. Teatrın Azərbaycan bölməsi 1930-cu ildə (ilk tamaşa – 30 yanvar) fəaliyyətə başlayıb.

**5 oktyabr 1935** – Görkəmli bəstəkar, Xalq artisti, professor Xəyyam Hadı oğlu Mirzəzadə (1935 – 30.7.2018) Bakıda anadan olub. "Ağlar və qaralar" baletinin, simfoniyaların, mahnıların müəllifidir. 30-dan çox filmə ("Bizim küçə", "Yeddi oğul istərəm", "Arxadan vurulan zərbə" və s.), teatr tamaşalarına musiqi yazıb.

**5 oktyabr 1935** – Əməkdar artist Məcnun Salam oğlu Hacıbəyov (1935 – 16.11.2021) Quba rayonunun İkinci Nügədi kəndində doğulub. Akademik Milli Dram Teatrında çalışıb, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**5 oktyabr 1955** – Əməkdar artist Simuzər Məmmədqulu qızı Namazova (1955 – 1.7.1996) Ağdam rayonunun Muğanlı kəndində doğulub. Ağdam və Gəncə teatrlarında çalışıb.

**5 oktyabr 1961** – Əməkdar artist Əlihüseyn Əbdülrəhim oğlu Qafarlı (15.3.1911 – 1961) vəfat edib. Gəncə teatrında, Musiqili Komediya Teatrında çalışıb.

**5 oktyabr 2002** – Əməkdar artist, tanınmış kamança ifaçısı Ədalət Səfərəli oğlu Vəzirov (27.4.1951 – 2002) vəfat edib.

**5 oktyabr 2021** – Xalq artisti Vaqif Abdulla oğlu Şərifov (12.8.1943 – 2021) vəfat edib. Sumqayıt, Ağdam teatrlarında baş rejissor, Gəncə Dövlət Dram Teatrında baş rejissor və bədii rəhbər işləyib, filmlərə çəkilib.

**6 oktyabr 1930** – Dövlət xadimi, publisist Səməd ağa Ağamalıoğlu (1867–1930) vəfat edib. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, sovetləşmədən sonra Azərbaycan SSR MİK (respublika hökuməti) sədri, Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin sədri olub. Azərbaycanda və Orta Asiya respublikalarında latın əlifbasına keçilməsinə rəhbərlik edib.

**6 oktyabr 1975** – Bakıda Səməd Vurğunun Ev-Muzeyinin açılışı keçirilib. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə iştirak edib.

**7 oktyabr 1921** – Əməkdar mədəniyyət işçisi, kino təşkilatçısı Gita Aleksandrovna Bessantina (1921-2000) anadan olub.

**7 oktyabr 2021** – Əməkdar rəssam, heykəltəraş Namiq Əbdülxaliq oğlu Dadaşov (27.11.1945 – 2021) vəfat edib. Üzeyir Hacıbəyli və Bülbülün Şuşa şəhərindəki büstlərinin, Bakıda Fikrət Əmirovun heykəlinin müəllifidir.

### Dünya

**5 oktyabr** Beynəlxalq Müəllimlər Günüdür. 1966-cı il oktyabrın 5-də UNESCO-nun qərarı ilə təsis edilib.

**5 oktyabr 1713** – Fransız mütəfəkkiri, maarifçi, dramaturq Deni Didro (Denis Diderot; 1713-1784) anadan olub. Fransız "Ensiklopediya"sının ("İzahlı elm, sənət və peşə lüğəti") redaktoru və müəlliflərindən biri olub.

**5 oktyabr 1936** – Çex yazıçı-dramaturqu, dövlət xadimi Vatslav Havel (Vaclav Havel; 1936-2011) anadan olub. Pyesləri: "Həyat irəlidədir", "Bağda bayram", "Sui-qəsdçilər" və s. Çex Respublikasının ilk Prezidenti (1993-2003) olub.

**6 oktyabr 1914** – Norveç səyyahı, etnoqraf və antropoloq Tur Heyerdal (Thor Heyerdahl; 1914 - 18.4.2002) anadan olub. Heyerdal dəfələrlə Azərbaycanda olub, Qobustana ekspedisiyalar təşkil edib.

**6 oktyabr 1923** – Türkiyə yazıçısı, şair Yaşar Kamal (Kamal Sadık Gökçeli; 1923 – 28.2.2015) anadan olub. "Tənəkə", "Yağmurcuq quşu", "Qanın səsi" romanlarının müəllifidir. Kitabları bir çox dillərə tərcümə olunub.

**7 oktyabr 1915** – Rus şairəsi Marqarita Aliger (1915-1992) anadan olub. Poemaları: "İgidlərin xatirəsinə", "Zoya" və s.

**Hazırladı: Vüqar Orxan**

# Kitabxanalar biznes-inkubatorlara çevrilə bilər

Rəqəmsal imkanların sürətlə artdığı müasir dünyada kitabxanalar öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmaq üçün cəmiyyətdəki rollarına yenidən baxmalıdır. Bu xüsusda kitabxanaların startap-inkubatorlara çevrilməsi, biznes layihələrində iştirak etməsi, eləcə də marketinq təhqiqatları aparmaqla, müxtəlif əhali qrupları, təşkilatlarla sıx əlaqələr qurması günün vacib tələblərindən biridir.

Biznes-kitabxana əməkdaşlığının qurulmasında "yaradıcı sahibkarlıq" ideyasının təbliği sahəsində bir sıra tədbirlərin planlaşdırılması, o cümlədən sahibkarlar üçün kitabxanalara turların təşkili, kiçik və orta sahibkarlıq subyektləri üçün "vahid məlumat günü", "mütəxəssis günü" kimi tədbirlərin, kiçik və orta biznes nümayəndələri ilə görüşlərin keçirilməsi əhəmiyyət kəsb edir. Buraya elektron növbə və distansiyadan (internet vasitəsilə) göstərilən xidmətlərin sayının artırılması, vahid informasiya xidməti sisteminin yaradılması, kitabxana-nəşriyyat, kitabxana-muzey, kitabxana-kitab mağazaları, kitabxana-müəllif əlaqələrinin genişləndirilməsi və s. də daxildir.

Kitabxanaların kommersiyalaşdırılmasının əsas ideyası onları xüsusilə şəhər mədəni həyatının mərkəzlərindən biri kimi ictimai məkanlara çevirməkdir. Bu məsələnin həllində özəl kitabxanaların yaradılması mühüm rol oynaya bilər. Belə kitabxanalar kitab verilişi ilə yanaşı, oxuculara internetdən istifadə etmək, maraqları üzrə onlar üçün müxtəlif görüşlər keçirmək imkanı yaradır. Buraya kinoteatrlar, kompüter oyunları və musiqi seksiyaları cəlb oluna bilər. Şəxsi kitabxanaların icarəyə verilməsi də yerinə düşərdi. Bundan əlavə, özəl kitabxana adi kitabxanalardan fərqli olaraq, kitabları oxucuların evinə və ya ofisinə ödənişli şəkildə çatdıra bilər.

Kitab klubu statusuna malik olan kitabxana-klubların, o cümlədən kitabxana-kitab mağazalarının sayının artırılmasını ticarət kitabxanalarının yaradılmasında mühüm addım kimi qəbul etmək olar. Burada kitabları, CD-ləri pulla icarəyə götürmək olar.

Bacarıqlı marketoloqların kitabxanalara cəlb edilməsinin də əhəmiyyəti böyükdür. Çünki kitabxana marketinqi kitabxana xidmətləri və məhsullarının real və potensial istifadəçilərinin ehtiyac və tələblərinin maksimum şəkildə ödənilməsinə yönəlmiş idarəetmə texnologiyasıdır. Kitabxananın marketoloqu hədəf kimi götürülən oxucu auditoriyasını, onlar üçün nəzərdə tutulan əmtəə və xidmətlər bazarını, rəqibləri asanlıqla təhlil edəcək və bunun əsasında xidmət və məhsulların inkişaf strategiyasını hazırlayacaq.

Beləliklə, kitabxanaları biznes-inkubator kimi təşkil edən zaman həmin sahədə mövcud ən yaxşı təcrübəyə müraciət edilməli və əsas maliyyələşdirmə mənbələri tapılmalıdır. Bu işin davamlı inkişafı və miqyası isə həm də prosesin əsasının necə qoyulmasından asılıdır.

**Cəmilə Səmədova**
**Səbail rayon MKS-nin əməkdaşı**

# "Ənənələrdən gələcəyə birlikdəyik!"

## Ölkəmiz Bursada IV Dünya Köçəri Oyunlarında təmsil olunub



əvvəli səh. 1-də

Qeyd edək ki, ümumilikdə 102 ölkənin təmsil olunduğu IV Dünya Köçəri Oyunlarında 14-ü ənənəvi oyun və 30-dək performans-göstəri olmaqla 40-dan çox kateqoriyada çıxışlar olub. Ölkəmiz yarışlarda kəmər güləşi, pəhləvan güləşi, yağlı güləş, milli oxatma – ümumilikdə 12 növdə təmsil olunub.

İznikdə yarışların keçirildiyi idman kəndində mədəniyyət çadırları da fəaliyyət göstərib, iştirakçı ölkələrin əl sənətkarlığı, mətbəx mədəniyyəti və s. nümayiş olunub. TÜRKSOY-un çadırında Azərbaycandan xalçaçı Nazilə Əbilova və dəri üzrə rəngkar Pərvanə Eyyubova da nəfis əl işlərini təqdim ediblər.

Bundan əlavə, Azərbaycanın Türkiyədəki Səfirliyi tərəfindən qurulan çadırda tarixi irs və mədəniyyət nümunələrimiz təbliğ edilib. Çadırda qurulan fotosərgidə Azərbaycanın Vətən müharibəsində qazandığı şanlı Qələbə, Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri, həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan torpaqlarımızda həyata keçirilən quruculuq işləri əks olunub.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Azərbaycan tərəfindən Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının üzvü Həsən Həsənov və digər rəsmi şəxslər Azərbaycan çadırını ziyarət edib. Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov qonaqlara buradakı sərgi barədə məlumat verib.

Oktyabrın 2-də IV Dünya Köçəri Oyunlarının təntənəli bağlanış mərasimi də rəngli görüntülərlə yadda qalıb. Azərbaycan təmsilçiləri də öz performanslarını göstəriblər.

Bağlanış mərasimində F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, "Cəngi" estrada və folklor ansamblı TÜRKSOY-un təşəkkür diplomu, kollektivlərin baletmeysterləri təşkilatın "Aşıq Veysəl" xatirə medalı ilə təltif olunublar.

Qeyd edək ki, türk xalqlarının milli oyunlarını canlandırmaq, inkişaf etdirmək və qorumaq məqsədilə Dünya Köçəri Oyunlarının keçirilməsi təşəbbüsü 2012-ci ildə Bişkekdə Türk Şurasının (2021-ci ildən Türk Dövlətləri Təşkilatı) sammitində qaldırılıb. Təşəbbüs Türk Şurasına üzv ölkələrin dövlət başçıları tərəfindən dəstəklənib və oyunlar ilk dəfə 2014-cü ildə Qırğızıstanda, İssık-Kul gölünün sahilindəki Çolpon-Ata şəhərində gerçəkləşib. Sonrakı iki Oyunlara da (2016, 2018) Qırğızıstan ev sahibliyi edib.

Türk Şurasına üzv ölkələrin dövlət başçılarının 2018-ci ildə Çolpon-Ata şəhərində keçirilən zirvə görüşündə növbəti – IV Dünya Köçəri Oyunlarının 2020-ci ildə Türkiyədə təşkil olunmasına dair qərar qəbul olunmuş, ev sahibliyi Bursaya verilmişdi.

Lakin 2020-ci ildə başlanan pandemiya səbəbindən Oyunlar əvvəlcə 2021-ci, sonra isə 2022-ci ilə ertələndi. Bu il Bursanın həmçinin "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olması bu beynəlxalq tədbirin əhəmiyyətini daha da artırıb. IV Dünya Köçəri Oyunlarına rekord sayda ölkə və idmançının qatılması da bunun göstəricisidir. Xatırladaq ki, bundan öncəki III Dünya Köçəri Oyunlarında 62 ölkədən 2 minə yaxın iştirakçı olmuşdu.



IV Dünya Köçəri Oyunlarının bağlanış mərasimində çıxış edən Türkiyənin gənclik və idman naziri Mehmet Muharrem Kasapoğlu "Oyunların qazananı qardaşlıq, sevgi, sayğı, birlik və bərabərlikdir" deyib.

Tədbirin təşkilatçılarından olan Dünya Etnospor Konfederasiyası başqanı Bilal Ərdoğan növbəti, V Dünya Köçəri Oyunlarının 2024-cü ildə Qazaxıstanda keçiriləcəyini bildirib.

# Fəxriyyə Xələfova "Annual Awards for Top Influencers" mükafatına layiq görülüb

Fransanın paytaxtı Parisdə keçirilən Beynəlxalq İnvestisiya Konqresində (International Investment Congress) iştirak edən tanınmış modelyer-dizayner, Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova bu qurumun 2022-ci il üzrə "Annual Awards for Top Influencers-2022" nominasiyasında mükafata layiq görülüb.

Beynəlxalq tədbirin mükafatçıları, o cümlədən Fəxriyyə Xələfovanın iştirakı ilə mətbuat konfransı keçirilib. O, mətbuat konfransında Azərbaycan moda aləmi, özünün yaratdığı dizaynlar və parfümeriya haqqında məlumat verib. Fəxriyyə Xələfova Beynəlxalq İnvestisiya Konqresinin növbəti tədbirini Bakıda keçirməyi təklif edib.



# İstanbul 2023-cü ildə "Türk Dünyasının Gənclik Paytaxtı" olacaq

İstanbul şəhəri 2023-cü ildə "Türk Dünyasının Gənclik Paytaxtı" olacaq. Bu barədə Türk Dövlətləri Təşkilatının (TDT) gənclər və idman nazirlərinin Bursada keçirilən VI toplantısında qərar qəbul olunub.

Türkiyənin gənclik və idman naziri Mehmet Muharrem Kasapoğlu İstanbulun "Gənclik Paytaxtı" adını qürurla daşıyacağına, Türk dünyası gəncləri arasında həmrəyliyin daha da güclənməsinə, eləcə də əməkdaşlıq əlaqələrinin daha da inkişafına vəsilə olacağına əminliyini ifadə edib. Qeyd edək ki, bundan əvvəl "Türk Dünyasının Gənclik Paytaxtı" adını Özbəkistanın Buxara şəhəri daşıyıb.




TDT-nin gənclər və idman nazirlərinin 6-cı toplantısında Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, eləcə də Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Macarıstanın aidiyyəti nazirləri, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdat Amreyev iştirak ediblər.

**Mehparə Sultanova**
**Ankara**

# Bütün kənd blogerliyə girişib...

## Asan pul qazanmaq istəyirlər

Hindistandakı Tulsi kəndi sakinlərin sosial şəbəkələrdə fəallığı sayəsində məşhurlaşıb. Kəndin, demək olar ki, bütün əhalisi videoblogerliyə girişib.



Sakinlərin hər biri özlərinin və qonşularının həyatını, kənddəki yaşayışı, ətrafda baş verənləri və s. barədə videolar çəkərək aktiv şəkildə sosial şəbəkələrdə paylaşırlar.

Bu barədə "Oddity Central" portalında yer alan məlumata görə, kəndin 3 min nəfər sakini var. Son illərə qədər onların əksəriyyəti fermerliklə məşğul olurdu. Lakin blogerlərin sosial şəbəkə paylaşımları ilə asan pul qazandıqlarını öyrənəndən sonra bir neçə sakin bu fəaliyyətə başlamışdı. Beləcə, tədricən bütün sakinlər işini-peşəsini atıb bloger olmaq qərarına gəlib.

İndi hər kəs səhər əlində videokamera və ya smart telefon evdən çıxır, kəndi, eləcə də ətraf yerləri dolaşır, sonra da çəkdikləri videoları sosial şəbəkə hesablarında yayaraq maksimum "bəyənmə" (və ona müvafiq pul) qazanmağa çalışırlar.

Məlumatda bildirilir ki, Tulsi kəndində videokontent sahibi olan sakinlərdən ən gənci 15, ən qocası 85 yaşındadır.

**V.Kamal**

# Stokholmdakı sərgidə Azərbaycan guşəsi

Stokholm Bələdiyyəsi tərəfindən keçirilən "Mədəniyyət və müxtəliflik sərgisi"ndə İsveç paytaxtında fəaliyyət göstərən diaspor təşkilatları iştirak ediblər.

İsveç-Azərbaycan Dərnəyi (SAF) də sərginin keçirildiyi məkanda öz guşəsi ilə təmsil olunub.

Guşədə SAF dərnəyinin fəaliyyət istiqamətləri, o cümlədən təşkilat nəzdində "Qarabağ" həftəsonu məktəbi və "Qarabağ" rəqs qrupu haqqında məlumat verilib.

Daha sonra Azərbaycanın tarixi, xalqımızın zəngin mədəniyyəti və adət-ənənələri, milli geyimləri haqqında məlumat diqqətə çatdırılıb. SAF dərnəyinin milli geyimli üzvləri yerli ictimaiyyət nümayəndələrinə ölkəmizlə bağlı tanıtım broşürləri paylayaraq, onların suallarını cavablandırıb.



Həmçinin Azərbaycanın otuz ilə yaxın işğal və talana məruz qalmış əraziləri, Qarabağ həqiqətləri haqqında da söz açılıb.

# Avropada internet şəbəkəsindən istifadə kəskin artıb

Avropa Statistika İdarəsi – "Avrostat" Avropa İttifaqına (Aİ) üzv ölkələrdə rəqəmsal təminetmə sahəsində bu yaxınlarda aparılan tədqiqatın nəticələrini dərc edib.

Tədqiqatın nəticələri koronavirus pandemiyası başlanması ilə Aİ-yə üzv ölkələrdə internet şəbəkəsindən və mobil cihazlardan istifadənin kəskin artdığını göstərir.

Ötən il orta səviyyəli Avropa ailəsinin 91 faizinin genişzolaqlı internetə çıxışı olub ki, bu da ABŞ-dakı orta göstəricidən cəmi 1 faiz bəndi aşağıdır.

Hesabata əsasən, Avropa ailələrində internetə əlçatanlıq son 10 il ərzində daim artaraq ümumilikdə 17 faiz yüksəlib. Halbuki dünya üzrə artım orta hesabla 6 faiz bəndi təşkil edib.

Hazırda genişzolaqlı internetin ümumi həcmi Aİ-nin böyük şəhərlərində 95,6 faiz təşkil edib. Bununla belə, nisbətən inkişafdan geri qalan regionlarda da bu göstərici 86 faizdən aşağı deyil.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 440 il əvvəl...

**4 oktyabr 1582-ci ildə** Roma Papası XIII Qriqorinin qərarı ilə Avropada yeni təqvimə keçid başlanıb. Qriqorian təqvimi adını alan yeni təqvim köhnədən 10 gün irəli (4 oktyabrdan sonra təqvimdə növbəti gün 15 oktyabr oldu) idi. Azərbaycanın da daxil olduğu keçmiş Rusiya imperiyasının ərazisində yeni təqvimə keçid 1918-ci ilin əvvəlində baş verdi.

### 121 il əvvəl...



**5 oktyabr 1901-ci ildə** Bakıda müsəlman qızlar üçün ilk təhsil ocağı – Qızlar Məktəbi açılıb. Məktəb maarifpərvər ziyalı Həsən bəy Zərdabinin təşəbbüsü ilə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev tərəfindən inşa etdirmişdi. Məktəbin direktoru H.Zərdabinin həyat yoldaşı Hənifə Məlikova-Zərdabi idi.

### 104 il əvvəl...

**5 oktyabr 1918-ci ildə** Xalq Cümhuriyyətinin Nazirlər Şurası ("Bakı Soveti") bolşeviklərin neft sənayesinin milliləşdirilməsi barədə bir neçə ay öncə qəbul etdikləri qərarı ləğv edib. Hökumətin qərarına əsasən, neft mədənləri, zavodlar, neftdaşıyan gəmilər əvvəlki sahiblərinə qaytarılıb. İki il sonra Azərbaycanın sovetləşməsi ilə neft sənayesi də tamamilə dövlətin nəzarətinə keçdi.

### 65 il əvvəl...



**4 oktyabr 1957-ci ildə** SSRİ-də dünyanın ilk süni peyki – "Sputnik-1" kosmosa çıxarılıb. Bu hadisə təkcə sovet kosmonavtikası üçün uğur deyildi. Məsələnin mühüm siyasi tərəfi onda idi ki, atom bombasının hazırlanmasında ABŞ-dan geri qalan SSRİ kosmosun fəthində birincilik əldə etmişdi.

### 41 il əvvəl...

**6 oktyabr 1981-ci ildə** Misir Prezidenti Ənvər Sədat Qahirədə keçirilən hərbi parad zamanı sui-qəsd nəticəsində öldürülüb. Terror aktının Misir rəhbərinin İsraillə sülh bağlamasına cavab addımı olduğu bildirildi. 1978-ci ildə ABŞ-ın vasitəçiliyi ilə Misir-İsrail sülh sazişi imzalanmış, İsrail işğal etdiyi Sinay yarımadasını Misirə qaytarmış, Misir isə İsrail dövlətini tanımışdı. Bir sıra müsəlman dövlətləri Ənvər Sədatın addımını Fələstinin taleyinə xəyanət kimi qiymətləndirdi.

### 31 il əvvəl...

**4 oktyabr 1991-ci ildə** erməni silahlı dəstələri Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni və Hadrut rayonlarında (indiki Xocavənd rayonunun ərazisi) azərbaycanlı əhaliyə qarşı kütləvi hücumlara başlayıblar. Ermənilərin iki aya yaxın sürən silahlı basqınları nəticəsində 30-dan çox yaşayış məntəqəsində azərbaycanlı əhalinin etnik təmizlənməsi həyata keçirildi. Regiondakı SSRİ Daxili Qoşunlarının bölmələri baş verənlərə seyrçi idi. Xocavənd rayonunun erməni işğalı altında olan kəndləri 2020-ci ildə 44 günlük Vətən müharibəsində azad edildi.

### 29 il əvvəl...

**4 oktyabr 1993-cü ildə** Moskvada iki həftəyə yaxın sürən prezident-parlament qarşıdurması güc tətbiqi ilə başa çatıb. Prezident Yeltsin tərəfindən buraxılmış Ali Sovetin tərəfdarlarının silaha əl atmasına cavab olaraq şəhərə hərbi qüvvələr yeridilib, parlament binası topa tutulub. Ali Sovetin sədri R.Xasbulatov, qiyama dəstək verən vitse-prezident A.Rutskoy və başqaları həbs edilib. Toqquşmalarda 100-dən çox ölən və yaralanan olmuşdu. Bu hadisədən sonra Rusiyada sovetlərin mövcudluğuna rəsmən son qoyuldu. 1993-cü il dekabrın 12-də yeni Konstitusiya qəbul olundu və qanunverici orqan kimi Dövlət Duması təsis edildi.

### 28 il əvvəl...

**4-5 oktyabr 1994-cü ildə** Bakıda və Gəncədə dövlət çevrilişinə cəhdin qarşısı alınıb. Çevrilişə hazırlıq oktyabrın 3-də DİN-in Xüsusi Təyinatlı Polis Dəstəsinin rəhbəri Rövşən Cavadov və qardaşı, Xətai rayonunun prokuroru Mahir Cavadovun Respublika Prokurorluğuna basqını ilə başlamışdı. Oktyabrın 4-də proseslərin idarəçisi olan baş nazir Surət Hüseynovun göstərişi ilə silahlı dəstələr Gəncədə hakimiyyəti devirməyə cəhd etdi. Prezident Heydər Əliyevin tədbirli siyasəti və qətiyyəti sayəsində bunun qarşısı alındı, çevriliş etmək istəyən qüvvələr zərərsizləşdirildi. Oktyabrın 4-ü gecə Heydər Əliyevin çağırışı ilə Prezident Aparatının binası önünə toplanan on minlərlə insan dövlət başçısına dəstək verdi. 5 oktyabrda "Azadlıq" meydanında ümumxalq mitinqində çıxış edən Heydər Əliyev dövlətçiliyin müdafiəsinə qalxdığına görə Azərbaycan xalqına təşəkkür etdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2883
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641